Bu bir xalq qəzetidi

ƏDALƏT

## Səlcuq Bayraqdar: "Qarabağ içimizdə qanayan yara idi"



**Türkiyə Texnologiya Vəqfi olaraq Azərbaycanla əməkdaşlıq etmək niyyətindəyik. Bu yaxınlarda bununla bağlı əlaqə saxlanılıb, addım atılacaq. "Bayraktar" olaraq pilotsuz uçuş aparatları fəal şəkildə xidmət edir. Bu sahədə əsgəri heyətin yetişdirilməsi çərçivəsində təlimlər davam edir. Bunu "Bayraktar TB2" pilotsuz uçuş aparatının yaradıcısı Səlcuq Bayraqdar deyib. O bildirib ki, azərbaycanlı gənclər 2018-ci ildən etibarən texnofestival çərçivəsində yarışlarda iştirak edib, uğurlara imza atıb.**

"İnanırıq ki, 2021-ci ildə qardaşlarımız yenidən festivala qatılıb, uğurlara imza atacaq. Qarabağ məsələsi içimizdə gənclik və uşaqlıq illərindən qanayan yara idi. Sonra pilotsuz uçuş aparatları müharibə tarixini dəyişdi. "Bayraktar"ın bu mübarizədə yer alması bizim üçün həyatboyu şərəf və qürur qaynağıdır.

*Aqil ABBAS*

## STALİN REJİSSORU NİYƏ ŞİLLƏLƏDİ?

Bax:səh-7

## Türkiyədə minatəmizləmə kurslarını bitirən FHN əməkdaşları ölkəyə qayıtdı

**Fövqəladə Hallar Nazirliyi Xüsusi Riskli Xilasetmə Xidmətinin 23 nəfərdən ibarət pirotexnik və istehkam qrupu Türkiyə Respublikası Milli Müdafiə Nazirliyi Baş Qərargahının Bakı Silahlı Qüvvələr Attaşeliyinin təşkilatçılığı ilə qardaş ölkədə Xüsusi Mina Axtarış və Təmizləmə kursunu müvəffəqiyyətlə bitirərək Azərbaycana qayıdıb.**

Nazirliyin Mətbuat xidmətindən Adalet.az-a verilən məlumata görə, 3-29 yanvar 2021-ci il tarixlərində İzmir şəhərində İstehkam Məktəbi və Təlim Mərkəzi Komandanlığında keçirilmiş kurslarda iştirak edən FHN əməkdaşları ərazilərin minalardan təmizlənməsi və zərərsizləşdirilməsi sahəsi üzrə bilik və bacarıqlarını təkmilləşdiriblər. Kursun yekununda şəxsi heyətə təlim-tədris prosesini bitirmələri barədə sertifikatlar təqdim olunub. Bundan əlavə, Türkiyə Milli Müdafiə Nazirliyi tərəfindən ikitərəfli əməkdaşlıq münasibətləri çərçivəsində Azərbaycan Fövqəladə Hallar Nazirliyinə 10 xüsusi təlim keçmiş minaaxtaran it də hədiyyə edilib. FHN-in kinoloqlarının həmin itlərin ölkəmizə gətirilməsi, həmçinin müvafiq sahədə bacarıqlarının artırılması məqsədilə Türkiyəyə ezam olunması üçün hazırlıq işləri görülür.

## Naxçıvanda COVID-19-a qarşı vaksinasiya başladı



**Naxçıvan Muxtar Respublikasında COVID-19 xəstəliyinə qarşı vaksinasiya başlayıb.**

Adalet.az xəbər verir ki, "Azərbaycan Respublikasında COVID-19 xəstəliyi əleyhinə 2021-2022-ci illər üçün vaksinasiya strategiyası"na müvafiq olaraq Naxçıvan Muxar Respublikası Səhiyyə Nazirliyinin təşkilatçılığı ilə bir neçə tibb müəssisəsində COVID-19 xəstəliyinə qarşı vaksinasiya aparılıb. Peyvənd ilkin mərhələdə risk qrupuna daxil olan səhiyyə işçilərinə vurulub. Naxçıvan Diaqnostika Müalicə Mərkəzinin həkim və tibb personalı təhlükəsizliyinə və effektivliyinə görə seçilən "Sinovac" vaksininə cəlb olunub. Vaksinasiya prosesinin planlı şəkildə və uğurla aparılması məqsədilə akademik Zərifə Əliyeva adına Naxçıvan şəhər Poliklinikasında 52 nəfər tibb heyəti müayinədən sonra vaksinasiyaya cəlb olunub. Naxçıvan Muxtar Respublika xəstəxanasında da 87 tibb işçisinin bədən hərarəti yoxlandıqdan sonra peyvənd olunub. Vaksinasiyadan Naxçıvan Muxtar Respublikası Doğum Mərkəzinin tibb heyəti də yararlanıb. Bədən hərarəti 37 dərəcədən yüksək olanlara peyvənd vurulmayıb. Ümumilikdə 73 nəfərdə aparılan vaksinasiya zamanı heç bir narahatlıq müşahidə olunmayıb.

**Qeyd edək ki, vaksinasiya prosesi muxtar respublikanın bütün rayon, şəhər tibb müəssisələrində aparılacaq.**

*Kərim Kərimli*

## VAQİF HƏSƏNOV HAQDA

Bax:səh-2

## MİLLƏT DEYİLİK EY, KEFİK BAŞDAN-AYAĞA




**Qəttəzə rabitə naziri özündən əvvəlki nazirin adamlarını işdən çıxarır. Əvvəlki nazir pis idisə və kadrları yerində deyildisə, bəs, necə olur ki, onu daha yüksək vəzifəyə təyin edirlər?**

**Qardaşım, bu məlumdur ki, hər bir nazir öz komandasını yığır, amma ağıllı nazir heç vaxt köhnə komandanı bütünlüklə məhv eləmir. Çünki onların təcrübəsi var, işi bilirlər və sair və ilaxır.**

**Dostum, öz komandanı gətir, amma yerində olan adamlara dəymə. Yoxsa nazirlik məhv olub gedəcək.**

**Və günlərin bir günü bunun cavabı sorulacaq!**

## DƏDƏM, NƏNƏM SAA QURBAN HANDE HARMANÇI...



**Səni and verirəm ölənlərinin goruna, Məhəmməd peyğəmbərə, İsa peyğəmbərə, Musa peyğəmbərə and verirəm, bilmirəm hansına inanırsan, imkanın varsa qoy yaşayaq da. Hər gün bir status paylaşıb bu millətə zillət yaşadırsan.**

Və indi də deyirsən ki, təzə bir virus gəlir, ingilis ştammı, millət qırılacaq.

Bəs, onda sənin təmsil elədiyin ÜST nəylə məşğuldu?

Bu bir xalq qəzetidi

www.adalet.az

ƏDALƏT

Qurucusu: Adil Minbaşıyev | Gündəlik hüquq qəzeti | Qəzet 1990-cı ilin iyulundan çıxır | № 13 (5845) 4 fevral 2021-ci il | Qiyməti 30 qəpik



*SƏHİYYƏ NAZİRİNİN MAAŞINI HƏLƏ DƏ OQTAY ŞİRƏLİYEV ALIR.*

# "Azad olunmuş ərazilər "yaşıl enerji zonası"nı təşkil edəcək"



Bax:səh-2

## Ölkə üzrə koronavirusa yoluxma statistikası açıqlandı



**Azərbaycanda koronavirusa yoluxanların 52.2 faizi Bakı şəhərinin payına düşür.**

Adalet.az-ın məlumatına görə, ölkə üzrə ikinci ən çox yoluxma Aran zonasındadır. Bu ərazidə yoluxma 13.3 faizə çıxıb. Abşeron rayonu yoluxmaya görə 12,9 faizlə 3-cü yerdə, Gəncə-Qazax zonası isə 8,1 faiz yoluxma ilə 4-cü yerdədir. 3,0 faiz yoluxma Quba-Xaçmaz, 3,2 Şəki- Zaqatala rayonları, 2,9 faizi Lənkəran rayonu, 1,4 faizi Yuxarı Qarabağ bölgəsi, 2,5 faizi isə Dağlıq Şirvan ərazilərində qeydə alınıb. Naxçıvanda isə son statistikaya görə koronavirusa yoluxma halı 0,004 faiz qeydə alınıb. Ölkədə koronavirusa yoluxanların 21 faizi 50-59 yaş arasında, 18 faizi isə 30-39 yaş arasında olan şəxslərdir. Yoluxanların 5 faizini 0-9 yaş, 2 faizini isə 80 yaşdan yuxarı şəxslər təşkil edir. Yoluxanların 54 faizi qadın, 46 faizi isə kişilərdir.

## YA HAMISINI, YA DA RASİM MƏMMƏDOVA AZADLIQ

**Deməli, oxuyuram ki, "Baku Steel company" şirkətinin prezidenti (aşağıda P.S.-ə baxın) Rasim Məmmədovun həbsi ilə bağlı Dövlət Təhlükəsizlik Xidməti məlumat yayıb ki, bu adam indiyədək 55 milyon manatlıq dövlət əmlakını mənimsəyib.**



Çox maraqlıdır, qəzetimiz bir dəfə Sosial Müdafiə Fondunun deyəsən, təxminən 1100 manat pulunu səhvən ödəməmişdi. Dərhal müfəttişlik gəldi və bizə ödəmədiyimiz puldan iki dəfə artıq cərimə yazdı və biz həmin pulu ödəmək məcburiyyətində qaldıq.

1100 manat...

... İndi bir şirkət bütün dövlət orqanlarının gözü qarşısında 55 milyon manat pul oğurlayır. Dövlətin müvafiq orqanları niyə bunu indi bilir? Orda indiyə qədər dövlətin müvafiq orqanları yoxlamalar aparmayıblarmı?! Aparıblarsa, niyə bu rəqəmi görməyiblər. Bu, üç manat deyil, əlli manat deyil, "Ədalət" qəzetinin səhv etdiyi 1100 manat deyil, 55 milyon manat puldu ey.

Deməli, gediblər pullarını alıblar və bu məsələni də ört-basdır ediblər.

Ona görə də təkcə Rasim Məmmədov həbs edilməli deyil. Bu məsələni ört-basdır eləyən müvafiq dövlət orqanları da məsuliyyət daşıyırlar və onlar da cəzalandırılmalıdırlar.

Və onda ədalət qalib gəlir, yoxsa Rasim Məmmədovu həbs eləməklə yox.

***P.S. Vəkil Aslan İsmayılovun bununla əlaqədar apardığı mübarizədən xəbəriniz var. Yaxşı olar ki, Aslan İsmayılov bu barədə açıqlamalar versin.***

## SÜLHMƏRAMLI, YOXSA ERMƏNİMƏRAMLI?!

**Deməli, Kəlbəcərə gedən yük maşınlarımız Ağdərənin arasından keçəndə ermənilər yolu bağlayıb. Sonra sülhməramlılar gəlib, ermənilərə yalvarıb-yaxarandan sonra, nə bilim haralarını öpəndən sonra bizim maşınların nömrələrini söküblər, bayraqlarını çıxarıblar, ondan sonra ermənilər icazə verib ki, həmin maşınlar Kəlbəcərə getsin.**

Bəs necə olur ki, Ermənistandan gələn maşınlar fıştırıq verə-verə Xankəndinə, Əsgərana, Ağdərəyə gələ bilir?!

Səbr edirik, amma bu səbrin də bir həddi var və bizim Müdafiə Nazirliyi bunu sülhməramlı və ya erməniməramlı qüvvələrin qarşısında qaldırmalıdır.

## Vaqif Qarayev: Bağlanacaqmı bu məsələ?



**Dostluğumda gürcülər, ruslar, ukraynalılar, türklər, yunanlar var...onlarla müxtəlif forumlarda müzakirələr zamanı tanış olmuşam...obyektiv adamlardı...həqiqəti deyə bilirlər...öz ziyanlarına olsa belə.....**

**Keşikçidağ....David Qareci! Son vaxtlar gürcü millətçiləri və dindarları bu məsələni qızışdırırlar...sosial şəbəkələrdə qan su yerinə axır....əməlli-başlı müharibə gedir. Amma tanıdığım gürcülər məsələyə soyuq başla yanaşırlar....qaşınmayan yerdən qan çıxartmamağa səsləyirlər həmvətənlərini....**

**Bizdə də urapatriotlar az deyil...Borçalının yolunu tanımayanlar burda oturub Borçalıya muxtariyyət tələb edirlər....hər iki tərəfdən parabeyinlər kifayət qədərdi....**

**Sonda Gürcüstanın Baş nazirindən sitat: Biz Qarecinin gələcəyi ilə ehtiyatlı olmalıyıq və strateji tərəfdaşımız olan Azərbaycanla münasibətlərimizə diqqət yetirməliyik!**

**Belə! Bağlanacaqmı bu məsələ?**

## RÜSTƏM MURADOV NJDENİN ABİDƏSİNƏ GÜL QOYDU, YOXSA YOX?!



**Ermənilər faşist cəlladı Njdeyə Xocavənddə (Martunidə) abidə ucaldıblar. Təntənəli açılış tədbiri həyata keçirilib. Amma bilmirəm, erməniməramlı qüvvələrin generalı Rüstəm Muradov həmin açılışda iştirak edib, ya yox və ya həmin faşistin abidəsinin önünə əklil qoyub, ya yox.**

Təbii ki, ermənilərin qorxusundan ola bilməz ki, açılışda iştirak etməsin. O, bununla bağlı bir açıqlama verməlidir. Etməyibsə, niyə etməyib və edibsə niyə edib?

Bunu ondan Azərbaycanın həm Müdafiə Nazirliyi, həm də Xarici İşlər Nazirliyi soruşmalıdır.

## BAYAQKI BİR XƏBƏRİMƏ ƏLAVƏ



***18 şəhidin qəbrinin İkinci Fəxri Xiyabana köçürülməsinə imkan yarada bilməyən Azərbaycan Respublikasının Müdafiə Nazirliyi (müdafiə nazirinin maaşını Zakir Həsənov alır) sülhməramlıların qarşısında hər hansı bir məsələ qaldıra bilərmi?***

***Söz sizindir, hörmətli oxucular. Bu da bizim statusumuzdur, cavab yazın göndərin, çap edək.***

## AYIBDI EY, ŞAİR ON QƏPİYİN SÖHBƏTİNİ EDİR



**Baxıram, tanınmış şair və həm də iş adamı olan Rauf Qərib Alagöz bir status paylaşıb ki, əvvəllər simiti 50 qəpiyə alırdı, indi 60 qəpiyə alır.**

Ayıb deyil, şair, 10 qəpiyin söhbətini edirsən?! Vallah, sənə yaraşdırmıram. İndi simit satan neyləsin ki, bir şeydən başqa hər şeyin qiyməti qalxıb. Əşi, sən də həmin 10 qəpiyin üstünə bir 20 qəpik qoy, düzəltdiyin mebellərin üstünə gəl.

## Rza Rzayev: Amerikalılar ən bədbəxt xalqdır



**Düşünürəm ki, amerikalılar ən bədbəxt xalqdır, niyə? Çünki biri bezəndə və yaxud işləri getməyəndə, bəxti gətirməyəndə öz ölkəsindən, dövlətindən üz döndərib gedir və yaxud getmək istəyir hamının xəyalı olan Amerikaya.**

Amerikada hər şey biz düşündüyümüz qədər asan deyil, bəs amerikalıların, yəni orada doğulanların işi gətirməyəndə hara üz tuturlar və yaxud tutmaq istəyirlər? Gedəcək "yerləri" yoxdur, buna görə deyirlər ki, hər amerikalının bir hekayəsi var, hekayəsi olmayan amerikalı özünə orada "yer" edə bilməz. Həmin "hekayəni" yaşamayan amerikalı Amerikanın qədrini bilməz, buna görə də, orada "yerləşmək" istəyən hər kəsə bu "hekayəni" yaşadırlar. Deməli, inkişaf o zaman baş verir ki, vətəndaş getmək haqda heç vaxt düşünmür, gedəcəyi yer yoxdur, olduğu yeri "düzəltmək" istəyir və düzəldir, özünə "yer" edir, yer axtarmır, bir ayağı qaçaraqda deyil. "Yerləşdiyi" yer onun üçün dəyərə çevrilir.

**Bunu daha bimirəm - gedəcək "yerləri" olmayan amerikalılar özlərini daha çox xoşbəxt sayırlar, ya gedəcək "yer" axtaran azərbaycanlılar. Sizcə?**



## MƏHƏMMƏD FÜZULİDƏN GÜNÜN STATUSU

*Dust bipərva, fələk birəhm, dövran bisükun,*
*Dərd çox, həmdərd yox, düşmən qəvi, tale zəbun.*

## GÜNÜN LƏTİFƏSİ

Deyir bostanı belləyirdim. Birdən gördüm ki, yerdə 50 qəpiklik metal pul var. Götürüb cibimə qoydum. Təzədən belləməyə davam edirəm. Görürəm yenə 50 qəpiklik pul. Beləcə düz on dəfə ard-arda.

**- Bəlkə xəzinədir?**

**- Ə, yox ee, sən demə, şalvarımın cibi deşik imiş.**

## Dövlət başçısı: “Çətin vaxtlarda italyan xalqı bizimlə həmrəy oldu”



**İtaliya və Azərbaycan arasında münasibətlər uğurla inkişaf edir. Bir il bundan əvvəl mənim ölkənizə dövlət səfərim bunu bir daha göstərdi və mən bizim rəhbər şəxslərlə, biznes icması ilə görüşlərimizi və müzakirələrimizi xatırlayıram. Biz həmişə sözümüzü tuturuq və razılaşdırdıqlarımızın hamısını icra edirik.**

Adalet.az xəbər verir ki, bunu Prezident İlham Əliyev İtaliyanın "Maire Tecnimont Group" şirkətinin sədri Fabrizio Di Amatonun başçılıq etdiyi nümayəndə heyətini videoformatda qəbul edərkən bildirib.

Dövlətimizin başçısı deyib: "Həmçinin keçən il tariximizdə yaşanan çətin vaxtlarda biz italyan xalqının bizimlə həmrəy olduğunun şahidi olduq. Biz İtaliya mediasının bu məsələyə obyektiv yanaşmasının şahidi olduq və onu da gördük ki, imzaladığımız və vurğuladığımız məsələləri reallığa çevirdik. Çünki İtaliya və Azərbaycan strateji tərəfdaşlardır. Strateji tərəfdaşlıq haqqında sənəd imzalanıb və reallıq da bizim strateji tərəfdaş olduğumuzu göstərir".

Prezident ümid etdiyini bildirib ki, italyan şirkətləri işğaldan azad olunmuş ərazilərimizin bərpası ilə bağlı layihələrdə çox fəal olacaqlar. "Sizə deyə bilərəm ki, artıq bərpa işləri və tikinti işləri ilə bağlı bir neçə italyan şirkəti dəvət olunub. Əminəm ki, onların sayı daha da artacaq. Çünki mən artıq dəfələrlə çıxışlarımda demişəm və bir daha qeyd etmək istəyirəm ki, biz yalnız dost ölkələrdən olan şirkətləri dəvət edəcəyik. Yaxşı ingilis deyimi var: yaxşı dost dar gündə tanınar. Bu çətin anda siz dostlarınızın həqiqətən kimin olduğunu anlayırsınız. Bu, çox vacib və dəyərli bir məsələdir", - deyə dövlətimizin başçısı qeyd edib.

Bakıda İtaliya-Azərbaycan Universitetinin təsis edilməsi ilə bağlı planlardan da söz açan Prezident İlham Əliyev deyib: "Biz artıq yer ayırmışıq. Artıq universitetin yaradılması ilə bağlı məsələ üzərində işlər başlayıb. Bu məsələ, həmçinin hökumət səviyyəsində razılaşdırılmışdır. Ümid edirəm ki, gərgin çalışsaq bu il biz bu işə başlaya bilərik. Çünki bu, bizim dostluğumuzun yaxşı göstəricisi olacaq və eyni zamanda, biz bu müəssisələri, bu sənaye sahələrini idarə edə biləcək yerli işçi qüvvəsinin yetişdirilməsinə çalışırıq. Elm və təhsil qabiliyyətinin, texnologiyanın yaradılması, gənc azərbaycanlıların hazırlanması və təlim keçməsi məsələsində də çox önəmlidir. Bu, həmçinin ölkələrimiz arasında sıx dostluq əlaqələrinin gücləndirilməsinə da kömək edəcək".

## “Azad olunmuş ərazilər “yaşıl enerji zonası”nı təşkil edəcək”

**”Sizin gələcək tərəfdaşlığımızla bağlı ideya və fikirlərinizi tam dəstəkləyirəm. Əlbəttə, Turin Universitetinin ümumi işlərimizdə iştirakı çox alqışlanandı. Həmçinin siz ”yaşıl kimya”nı qeyd etdiniz. Bildiyimə görə, bu, texnoloji inkişaf baxımından yenilikdir”.**

Adalet.az -ın məlumatına görə, bunu Prezident İlham Əliyev fevralın 3-də İtaliyanın "Maire Tecnimont Group" şirkətinin sədri Fabrizio Di Amatonun başçılıq etdiyi nümayəndə heyətini videoformatda qəbul edərkən deyib. Prezident bildirib ki, bu, həmçinin tərəflərin gündəliyinə tam uyğundur: "Çünki əvvəlki illərdə biz çox işlər görməli idik ki, həyat tərzini yaxşılaşdıraq və ətraf mühitə qarşı bütün çirklənmiş sahələri təmizləyək. Xüsusən də burada, Bakıda və Abşeron yarımadasında. Həmin ərazilər yüz ildən artıqdır ki, çirkləndirilib. Biz böyük sərmayələr yatırdıq, torpaqlarda çoxlu rekultivasiya işləri apardıq. Ətraf mühitin qorunmasına aid bir çox məsələlərlə məşğul olduq. Bu, davam edəcək.

Buna görə, "yaşıl enerji" konsepsiyası, əsasən, Azərbaycan üçün irəliyə aparan yoldur. Bu, bütün ölkəyə və xüsusən də azad olunmuş ərazilərə aiddir. Mən artıq bəyan etmişəm ki, azad olunmuş bütün ərazilər "yaşıl enerji zonası"nı təşkil edəcək. Onlar Azərbaycanın böyük hissəsini təşkil edir. Eyni zamanda, biz orada "ağıllı şəhər", hətta "ağıllı kənd" adlanan müasir texnologiyaları tətbiq edəcəyik. Bu, həmçinin Azərbaycanın yenidənqurmaya, müasirləşməyə və texnoloji tərəqqiyə ehtiyac duyduğumuz digər bölgələri üçün yaxşı nümunə olacaq".

Prezident İlham Əliyev bildirib ki, Azərbaycanda ən qabaqcıl texnologiyalar tətbiq ediləcək:

"Çünki ölkə müasirləşməlidir, intellektual baxımdan bacarıqlı olmalıdır və sənaye sahəsində güclənməlidir ki, biz neft və qaz qiymətlərindən asılı olmayaq. Bu, ölkəmizin dayanıqlı inkişafını təmin edəcək. Təbii ki, sənaye inkişafı prosesi zamanı, qeyd etdiyiniz kimi, şirkətiniz ilə Azərbaycan arasında strateji birlik çox alqışlanacaq. Müasirləşmək, irəliyə doğru getmək və inkişaf etmək üçün bizim bu cür güclü tərəfdaşa ehtiyacımız var. Mən bir daha, xüsusi olaraq, qeydlərinizdən birinə istinad etmək istəyirəm. Bu, şirkətinizdə yerli işçilərin olması ilə bağlıdır. Bu, dostluğun əsl rəmzidir və dostluğu nümayiş etdirir. Mən buna görə sizə təşəkkürümü bildirmək istəyirəm və əminliyimi ifadə edirəm ki, biz şirkətinizlə və tərəfdaşlarınızla birgə işimizi davam edəcəyik. Əminəm ki, buradakı imkanlar, İtaliyaya olan səmimi münasibətlər barədə ölkənizin iş adamlarını nə qədər çox bilərsə, bir o qədər çox İtaliya şirkətləri bura gələcək. Biz bunu istəyirik", - deyə Prezident əlavə edib.

# Abşeronda yeni Mərkəzi Xəstəxana

**İki gün öncə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci vitse-prezident Mehriban xanım Əliyeva Abşeron rayonuna səfər edərək rayonun bu günki reallıqları ilə yerində tanış oldular. Həmin səfər zamanı bir neçə sosial obyektlərin açılışı da realaşdı. Dövlətimizin başçısı və birinci xanım Rayon Mərkəzi Xəstəxanasının yeni tikilmiş binasının açılışını bildirən lenti kəsdikdən sonra burada yaradılan şəraitlə də tanış olublar.**

Xatırlatmaq yerinə düşər ki, Cənab Prezidentin sərəncamı ilə 4 hektar sahədə inşa olunan 150 çarpayılıq tibb müəssisəsi Yaponiya, Koreya Respublikasıİtaliya və Türkiyə istehsalı olan ən zəruri avadanlıqlarla təhciz edilib. Bu xəstəxanada cərrahiyə, terapiya, pediatriya, reanimasiya, dialez və digər şöbələr fəaliyyət göstərəcək.

Məlum olduğu kimi müasir tipli xəstəxanaların yaradılması ənənəsi ölkəmizdə artıq 17 ildir ki, müvəfəqiyətlə davam etdirilir. Son 17 il ərzində Azərbaycanın bütün bölgələrində750-dən çox xəstəxana yenidən tikilib, yaxud əsaslı təmir edilərək vətəndaşlarımızın istifadəsinə verilib.

Qeyd etmək lazımdır ki, yeni tibb müəssisələrinin həm memarlıq, həm də avadanlıqlarla təchizatstandartları yüksəkdir və müasir tələblərə cavab verir.

Səhiyyə sahəsində dövlət siyasəti bu istiqamətin təkmilləşdirilməsi, müasirləşdirilməsi və tibbi xidmətin keyfiyyətinin artırılmasına xidmət edir. Azərbaycanda hər il 5 milyon insan, demək olar ki, ölkə əhalisinin yarısı dövlət hesabına tibbi müayinədən keçir. Müasir xəstəxana fondunun yaradılması tibbi sığortaya keçməyə imkan verib. Son dövrlərdə cənab Prezidentin təşəbüsü ilə yaradılan xəstəxana fondunun genişləndirilməsi, dünyanı bürüyən qlobal pandemiya dövründə səhiyyəmizin xoşagəlməz fövqəladə vəziyyətə hazır olduğunu göstərdi.



***Əvvəllər Azərbaycanda cəmi 8 laboratoriya fəaliyyət göstərirdi və gündə cəmi min test keçirmək imkanına malik idisə, hazırda 42 laboratoriya fəaliyyət göstərir və 20 minə uaxın test keçirilə bilər. Prezident İlham Əliyevin göstərişi ilə pandemiya ilə əlaqədar hər hansı yarana biləcək neqativ halların qarşısının alınması üçün modul tipli 13 xəstəxana quraşdırılıb.***

Bütün bunlar göstərir ki, qlobal Pandemiyanın ilk günlərindən işlər düzgün aparılıb, bütün lazımi addımlar atılıb. Beynəlxalq təşkilatlarla, dünyanın aparıcı tibb müəssisələri ilə təmaslar qurulub, verilən tövsiyələrə vaxtında əməl olunub.

Hazırda əhalinin koronavirus əleyhinə vaksinlərlətəmin edilməsi üçün 4 milyon doz vaksin sifariş edilib və Azərbaycana gətirilməsi təmin edilib. Ümumdünya Səhiyyə Təşkilatı pandemiyaya qarşı mübarizədə "Azərbaycan modeli"ni yüksək qiymətləndirib,, bir neçə dəfə Azərbaycanı nümunəvi ölkə kimi təqdim edib. Qoşulmama Hərəkatına sədrlik edən Azərbaycan pandemiyaya qarşı mübarizə məqsədilə 30-dan çox ölkəyə maliyyə və humanitar yardım göstərib,beynəlxalq təşkilatlara, o cümlədən Ümumdünya Səhiyyə Təşkilatına 10 milyon dollar məbləğində könüllü ianə verib.

***Bəzi ölkələrin etinasızlığına baxmayaraq,Azərbaycan Qoşulmama Hərəkatının üzvlərinin dəstəyi ilə BMT Baş Assambleyasının COVİD-19-la bağlı xüsusi sessiyasının keçirilməsənə nail olub. Azərbaycan Prezidenti İlham Əliyev BMT Baş Assambleyasının xüsusi sessiyasında çıxış edərkən bütün ölkələri həmrəyliyə, bu bəlaya qarşı mübarizədə təşəbbüsləri birləşdirməyə, zəngin ölkələri məsuliyyət göstərməyə çağırıb. O, COVİD-19-a qarşı peyvəndin bütün ölkələrin xalqlarına çatmamasının vacibliyini xüsusi vurğulayıb. Azərbaycan Prezidenti zəngin ölkələri peyvəndi alıb kasıb ölkələrə də ötürməyə, şirkətləri isə bu sahədə qazanc dalınca qaçmamağa çağırıb.***

Yeni tibb müəssisəsində yaradılan şəraitlə tanışlıqdan sonra Prezident İlham Əliyev Azərbaycan televiziyasına müsahibəsində Mərkəzi Xəstəxanada görülən işlərlə bağlı təəssüratının çox müsbət olduğunu bildirib:

”Ölkəmizin bütün bölgələrində xəstəxanalar fəaliyyət göstərir. Son 17 il ərzində 750-dən cox xəstəxana ya yenidən tikilib, ya da i, əsaslı şəkildə təmir edilib. Səhiyyə sistemimizin xəstəxana və tibb müəssisələri fondu demək olar ki, indi ən yüksək standartlara cavab verur”.

**Cənab Prezident səhiyyə sahəsində görülən işlərin nəticəsi olaraq, ölkə əhalisinin yarısının - 5 milyon insanın tibbi yoxlamadan keçirilməsinin böyük təşkilatçılıq və maliyyə resursları tələb etməsinə baxmayaraq, bunun öhtəsindən gəldiyimizi bildirib: ” Azərbaycan nadir ölkələrdəndir ki, bu təşəbbüsü həm irəli sürüb, həm də bunu reallaşdırıb”. Ölkəmzin icbari tibbi sığorta sistemini müvəffəqiyyətlə başa çatdırılmasını vurğulayan Prezident, keçid mərhələsinin mərhələlərlə həyata keçirildiyini bildirib. Bütün bunların vaxtında yaradılan xəstəxana fondunun hesabına əldə olunduğunu qeyd edib.**

**Hazırladı;**
**Rüstəm Hacıyev**

# VAQİF HƏSƏNOV HAQDA

**Son vaxtlar Ağdam rayon İcra Hakimiyyətinin başçısı Vaqif Həsənov haqqında sosial şəbəkələrdə müxtəlif rəylər yazılır. Rastıma çıxdıqca bunlara mən də baxıram. Hazırda onun necə işlədiyinə, rəhbərlik etdiyi rayonun əhalisinə can yandırıb-yandırmadığına, dövlət başçısının etimadını necə doğrultduğuna aid nə isə demək, yazmaq mənim işim deyil. Əvvala ona görə ki, Vaqif Həsənovun Ağdama rəhbər təyin edilməsindən sonra və hələ ondan da bir qədər əvvəldən mənim onunla heç bir əlaqəm, - ya canlı, şəxsi görüş, ya da telefon danışığım, - olmayıb və bu gün də yoxdur. Açığı heç telefon nömrəsini də bilmirəm.**

Onun oradakı fəaliyyətinə aid öz rayonunun sakinləri lazımi qiymət verərlər. Ölkənin rəhbərliyində bu cür məslələrə məsul şəxslərin də işinə qarışmaq mənim səlahiyyətimdə deyil. Mən yalnız Vaqif müəllimin məcburi köçkün kimi məskunlaşdığım Qaradağ rayonunda İcra Hakimiyyəti başçısının müavini olduğu vaxt mənim iştirakımla baş vermiş bir əhvalatı danışmaq istəyirəm. Ümid edirəm ki, məni tanıyanlar səmimi danışdığımı və ümumiyyətlə yüksək vəzifəli şəxslərə qarşı əsasən tənqidi mövqedə olduğumu bilirlər.

***Hadisənin üstündən 14-15 il keçib. İndiyədək bunu bir-iki nəfər əlaqəli şəxsə danışmışam, vəssalam. Başqa nə kiməsə demiş, nə də haradasa yazmışam. Bir də qeyd edirəm ki, ilk dəfədir yazıram və səbəb də sosial şəbəkələrdə rast gəldiyim bəzi bəyənmədiyim statuslardır.***

Əslən Füzuli rayonunun Dövlətyarlı kəndindən olan şəhid atası, qanlı-qadalı 1990-cı illərin əvviəllərində iki oğul itirmiş, Kamran Məmmədov (artıq iki ildir ki, dünyasını dəyişib) Qaradağ rayonu ərazisi ilə bağlı bir problemlə əlaqədar mənə müraciət edərək kömək istəmişdi. Bu məsələ ilə maraqlananda hamı dedi ki, başçının müavini Vaqif Həsənovun yanına get, o həll edər. Hətta İcra Hakimiyyəti başçısının qəbul otağında da dedilər ki, Vaqif müəllimə müraciət et.

Onun iş kabinetinə yaxınlaşıb, katibəsinə özümü təqdim edib xahiş etdim ki, mənim gəldiyimi müavinə bildirsin və desin ki, mümkünsə məni onca dəqiqəlik qəbul etsin. Katibənin içəri keçməsi ilə qayıtması bir oldu. Ani olaraq düşündüm ki, yəqin deyib başqa vaxt gəlsin.

Lakin katibənin ardınca Vaqif Həsənovun özünün də qəbul otağına çıxdığını görəndə təəccübləndim. Ona qədər şəxsən görməmişdim və sifətdən tanımırdım. Lakin katibənin və otaqda oturmuş daha iki nəfərin özünü aparmağından, ayağa qalxmağından başa düşdüm ki, müavin bu adamdır.

Onun məni necə qarşıladığına özüm də heyrətləndim. O, sürətlə və gülə-gülə mənə yaxınlaşıb çox hərarətlə görüşdü və ardınca da özünü saxlaya bilməyib məni qucaqladı.

**- Xoş gəlmisən! Xoş gəlmisən! - deyə bir neçə dəfə təkrarladı. - Keç, keç içəri, - sonra üzünü katibəyə tutub əlavə elədi, - bizə çay ver, zəhmət olmasa.**

Məni irəli buraxıb, ardımca kabinetə girdi. "Zəhmət olmasa!" - ifadə beynimdən ildırım kimi keçdi. "İndi kimdi katibəsinə "Zəhmət olmasa!" deyən" - deyə düşündüm.

Qoluma girib məni lap yuxarıya keçirdi, özü də həmişəki yerində deyil, keçib mənimlə üzbəüz oturdu. Hal-xoşdan, bir stəkan şokoladla çaydan sonra üzündəki xoş təbəssümü daha ciddi ifadə ilə əvəz edib:

**- Səni eşidirəm, qardaş, xeyirdimi? - deyə soruşdu. - Gəlişinin məqsədi nədir?**

Tez də əlavə elədi:

**- Yox-yox, gəlişin çox xoşdu, həmişə gözümüz üstə yerin var. Dediyim odur ki, görüm bəlkə bir işin, problemin var.**

Təkrarçılıq olmasın, yenə də sanki heyrət içindəydim. Heç kim sözümü qəribçiliyə salmasın. Mən ona qədər məni şəxsən tanıyan və yaxın münasibətimiz olan vəzifəli şəxslərdən başqa, digər məmurlardan tanışlığa qədər bu



cür münasibət görməmişdim. Düzdür tanış olandan, kimliyimi biləndən sonra həmişə mənə səmimi hörmət göstəriblər, ancaq Vaqif müəllimin məni tanıdığını bilmirdim və təəccüblənmişdim.

Gəlişimin məqsədini dedim və şəhid atasının heç bir qanun pozuntusu olmayan xahişini çatdırdım. Sonra əvvəlcədən Kamran əminin telefon nömrəsini yazdığım kağız parçasını da onun qarşısına qoyub dedim:

**- İstəsəniz işçilərinizə tapşıra bilərsiniz zəng edib dəqiqləşdirsinlər, yaxud adam göndərə bilərsiniz ki, gedib maraqlansınlar.**

Güldü və gülə-gülə də bir az incimiş kimi:

**- Sənə inanmıram? - deyə cavab verdi. - Şəhid ailələri, şəhid atası başımızın tacı, gözümüzün işığıdır, - dedi, - biz onların bütün problemlərini həll etməyə borcluyuq.**

Durub keçdi öz yerinə, telefonun dəstəyini qaldırıb müvafiq şəxslərə lazımi tapşırıqlar verdi. Zəng etdiyi adamlardan biri telefonda ona nə dedisə, Vaqif müəllim əsəbiləşdiyini məharətlə gizlətməyə çalşaraq, amma ötkəm səslə və təmkinlə ona mənim heç ağlıma gəlməyən qəribə bir cavab verdi:

**- Filankəs, Qaradağ rayonunun 120 min əhalisi var. Əgər bu rayonu başına qaldırıb silkələyə bilən olsa, azı 50 min sənin kimi filankəs tökülə bilər, bir az da möhkəm silkələsə, heç olmasa 1000 nəfərdə mənim kimi Vaqif düşər. Amma nə qədər silkələsələr də Kərim Kərimlidən elə bircəciyi düşəcək. Ondan başqası daha yoxdur. Biz fəxr eləməliyik ki, o məhz bizim rayonda yaşayır. Özü də mənim yanıma öz işi üçün gəlməyib, şəhid ailəsinin xahişinə gəlib. Başa düşürsən, indi oturub mənim yanımda ürəyindən nə keçsə, deyə bilər, amma şəhid atasının xahişin edir. Biz bunu gözləməməli idik, bu işi sən, mən, biz görməli idik...**

Əziz dostlar, başa düşürəm ki, başınızı ağrıdıram. Ancaq təvazökarlıqdan uzaq olsa da, təfərrüatlı danışmağa məcburam.

Bu münasibətdən mütəssir olmuş, bir az da utana-utana ayağa qalxdım, səmimiyyətlə əl verib:

**- Çox sağ olun, Vaqif müəllim, - dedim, - Allah köməyiniz olsun! Ancaq sizə bircə sualım yaranıb, icazə versəniz...**

**- Buyur, buyur, - dedi, - o nə sözdür?** Nə **lazımdır, de, imkan daxilində canla-başla həll edərik, - o da ayağa qalxdı.**

**- Bilirsiniz, - dedim, - bəlkə də sözlərim yersiz görünə bilər, amma soruşmasam da, rahat olmayacağam. Məni bu cür qarşılamağınız, məsələni dərhal və təmənnasız, çək-çevirsiz həll etməyiniz, üstəgəl, şəxsən özümə belə münasibət göstərməyiniz, haqqımda bu cür çox qiymətli sözlər deməyiniz, özü də tanış olmaya-olmaya, mənə bir az qeyri-adi gəldi. Axı biz heç tanış deyilik! Bunun səbəbini bilmək istəyirəm, elə ikicə kəlmə...**

Yenə də güldü. İkimizdə ayaq üstə idik. Qayıdıb yerində oturdu. Stolunun sağ gözünü açıb oradan mənim şəhidlər haqqında yazdığım, Xocalıya həsr etdiyim... kitablarımı çıxardıb stolun üstünə qoydu. Sonra geri qanrılıb rəfdən Mikayıl Gözəlova həsr edilmiş kitabımı və bir də şeirlər kitabımı da götürüb o kitabların üstünə qoydu.

**- Mən sənin beş-altı kitabını oxumuşam, - dedi. - Yüzlərlə məqaləni oxumuşam... Bizim rayonun ərazisində yaşayırsan. Səninlə fəxr edirik. Ümumi vəziyyətindən başçının müavini kimi də xəbərim var. Əslində biz sənə ev tikib verməliyik, maşın alıb verməliyik. Amma bunları etməyə gücümüz çatmırsa, bunu edə bilmiriksə, yanımıza gələndə sənin kimi bir ziyalını ayaqüstə qarşılamağa nə söz? Heç olmasa buna da qabiliyyətimiz çatmamalıdır? Bundan sonra da nə işin olsa çəkinmədən gəl, nə sözün var, de. Qanun və səlahiyyətim çərçivəsində əlimdən gələni etməyə həmişə hazır olacağam. Möhtərəm prezident bu vəzifələri başçıya da, müavinlərə də məhz ona görə verib ki, xalqa qulluq edək, xüsusilə də şəhid ailələrinə qayğı göstərək. Bax, görürsənmi, sən də bura, mənim yanıma öz işindən ötrü deyil, məhz şəhid ailəsinin xahişini etməyə gəlmisən...**

Sonralar mən onun yanına heç vaxt getmədim, heç bir xahiş də etmədim. Heç vaxt da görüşümüz olmayıb. Amma onun haqqında olduqca böyük və xoş təəssürat fikrimdə yaşadı. Ağdama icra başçısı təyin ediləndə isə dedim ki, axır ki, ağdamlıların bəxti gətirdi...

Yenə də bu fikirdəyəm ki, Vaqif Həsənov yaxşı insandır, vicdanlı məmurdur, yaxşı başçıdır.

**Bu yazını yazmağı Qaradağ rayonunda bir dəfə görüşdüyüm Vaqif Həsənovun şəhid ailəsinin problemini həll etmək üçün göstərdiyi vicdanlı münasibətə görə borcum hesab edirdim...**

**Kərim Kərimli,**
**Şair, yazıçı, jurnalist**

<u>*İlham İsmayıl*</u>

## Qarabağ siyasətində Everestin fəthi...



*"Azərbaycan Qarabağ siyasətinin Everestinə yaxındır, indiyədək uğurla onun çox hissəsinə qalxa bilib, amma zirvə fəth olunmayanda tarix yerdə qalan hissəni hesaba salmır, elə xalq da..."*

*44 günlük uğurlu müharibənin sonunda Qarabağın dağlıq hissəsinin bir tərəfi - SSRİ dövründə mövcud olmuş keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətinin 72,8 faizi azad olunmadı, nəticədə erməni anklavı öz varlığını saxlayır, üstəlik şərti adı sülhməramlılar olan Rusiya qoşunları da anklava yeridilib. Hətta, "münaqişə bitib" bəyanatlarını alqışlayan nikbin kateqoriya belə şüuraltı olaraq dərk edir ki, Qarabağ problemi real olaraq davam edir və perspektivdə hadisələrin necə inkişaf edəcəyi barədə də aydın təsəvvür yoxdur. Bir az bədbin, bir az da praqmatik kateqoriya isə Rusiyanın Azərbaycanda tarixi missiyasının hər zaman fəlakət və bədbəxtliklə müşayət olunduğunu xatırladır, artıq Qarabağın rus-erməni birgə işğalına məruz qaldığını və Azərbaycanın bu ərazidə suverenliyinin de-fakto bərpa edəcəyinə şübhə ilə baxdıqlarını bildirirlər.*

*10 noyabrdan üç aya yaxın vaxt keçib. Mənzərə budur ki, Ermənistana qaçan erməniləri sülhməramlılar geri qaytarır, onlar üçün humanitar tədbirlər həyata keçirir, Ermənistan silahlı qüvvələri hələ də Qarabağın ərazisindədir, dövlət sərhədinə nəzarət olmadığı üçün İrəvandan müxtəlif ranqlı rəsmilər, ümumiyyətlə istənilən erməni keçib Azərbaycana gəlir, üstəlik Livandan terrorçuların da tez-tez Xankəndinə səfər etdiyi barədə məlumatlar daxil olur. Ermənistan müharibədə ağır məğlubiyyətə uğramasına baxmayaraq, təslim olmur, yenə də "Artsaxın öz müqəddaratını təyin etmə hüququ"ndan, beynəlxalq tanınmasından danışır.*

*10 noyabr bəyanatına əsasən bölgədə yolların, nəqliyyat infrastrukturunun açılması, tərəflər arasında sülhə doğru addım kimi dəyərləndirilir. Bu sülh necə olacaq? Açıq deyək ki, bu sual həm düşməni, həm də bizi narahat edir və düşündürür.*

*Qarabağın statusunun tezliklə müəyyən edilməsini daha çox qarşı tərəf qaldırır. Bu tələskənlik başadüşüləndir. Ermənilər müharibədən sonra Qarabağda özlərinin gələcəyini qeyri-müəyyən hesab edirlər. Pandemiyadan sonra sərhədlərin açılması ilə həm Ermənistan, həm də Qarabağ ermənilərinin böyük köçünün olacağını erməni analitikləri özləri etiraf edirlər. Müharibə oldu- olmadı, rahat yaşamaq üçün vətəni tərk etmək ermənininin xisləti və xarakteridir. Bu millət vətənini qiyabi, kənardan sevməyi daha üstün bilir, o da ermənilik ideologiyasının və kilsəsinin təbliğatının nəticəsidir, yoxsa tamam unutmağa belə hazırdırlar.*

*Azərbaycanın daxilində heç bir statusu qəbul etməyəcəklərini bildirsələr də, hələ də ümid edirlər ki, bu müstəqilliyə bərabər status da ola bilər və Azərbaycan Respublikasının daxilində olmaq formal xarakter daşıyacaq və yəqin ki, Rusiya sülhməramlıları əbədi olaraq bölgədə qalacaq.*

*Amma, sonralar Rusiya prezidenti V.Putinin, XİN rəhbəri S.Lavrovun, bu yaxınlarda Təhlükəsizlik Şurasının müavini D.Medvedyevin açıqlamalarında statusun indiki mərhələdə həll olunmayacağının vurğulanması erməniləri məyus edib və ümidlərini ATƏT-in Minsk Qrupunun üzvlərinin yenidən fəaliyyətə başlamasına, ABŞ prezidenti C. Baydenin guya yeni Qafqaz siyasəti aparacağına bağlayıblar.*

*Biz necə fikirləşirik və daha doğrusu, Qarabağda suverenliyimizi bərpa etmək üçün hansı siyasəti aparırıq? 10 noyabr bəyanatında göstərilir ki, müqavilənin beş ili tamam olanda tərəflərin biri etiraz edərsə altı ay əvvəldən bu barədə xəbərdarlıq etməlidir. Maraqlıdır, bu xəbərdarlığı, etirazı hansı tərəf edəcək? Bu gündən baxanda heç bir tərəf. Rusiyanın könüllü qoşun çıxarması sonuncu dəfə Almaniyadan olub.Buna səbəb də faktiki SSRİ-nin artıq Qərbdə hərbi qüvvə saxlamaq iqtidarında olmamağı idi. Rusiya indi gərgin siyasi-iqtisadi günlərini yaşayır, amma bu 90-cı illərin əvvəli deyil və Rusiyanın Cənubi Qafqazdan hansısa müqavilə müddətinin bitməsi ilə çıxası real görsənmir. Müqavilədə etiraz olmadığı halda sülhməramlıların daha bir beş il də qalması göstərilib. Və heç kim də indidən zəmanət vermir ki, bu sonuncu müddət olacaq. Rusiya Ermənistanda hərbi baza saxlamaq müddətini bir neçə dəfə, sonuncu dəfə isə 2044-cü ilə kimi uzadıb.*

*Azərbaycan bu 10 ili gözləməlidirmi? 10 ildən sonra suverenliyimizi bərpa edəcəyiksə indidən hansı siyasəti aparmalıyıq? 10 ildə bizdən asılı olmayan səbəblərdən Cənubi Qafqazda hansı qlobal dəyişikliklərin olacağını və bu dəyişikliklərin bizim xeyrimizə nəticələnəcəyini proqnozlaşdırmaq çətindir. Dəmiri isti-isti döymək zamanıdır. Düşmən xaotik daxili siyasi gərginlikdədir, bizim hərbi,siyasi, iqtisadi, mənəvi üstünlüyümüz var. Türkiyə kimi bölgədə ciddi siyasi-hərbi dayağımız var. Biz 10 il gözləyə bilmərik.*

*Bu üç ay ərzində faktiki olaraq biz Dağlıq Qarabağda baş verənləri seyr edib, əsəb keçirməklə məşğuluq. "Hələ tezdir" deyənlərin də fikirlərində məntiq var, amma o "tezdir" deyənlər konkret vaxt da söyləmirlər. Düşmən isə süni şəkildə bölgədə say artımı ilə məşğuldur. Nədən başlayacağımızı dəfələrlə bildirmişik. Azərbaycanlılar 90-cı illərin əvvəlinədək Dağlıq Qarabağdakı yaşadıqları yerlərə köçürülməlidir. Bu barədə gecikmədən rəsmi bəyanat elan olunmalıdır. İlk beşillikdə bu məsələ həll olunmasa biz çox beşilliklər gözləmək təhlükəsi ilə üz-üzə qala bilərik.*

*Azərbaycan Qarabağ siyasətinin Everestinə yaxındır. İndiyədək uğurla onun çox hissəsinə qalxa bilib. Amma zirvə fəth olunmayanda tarix yerdə qalan hissəni hesaba salmır, elə xalq da...*

## *Tural Cəfərov: Bəşər övladı məqsədlə vasitəni səhv salır*



**Örtünməkdə məqsəd iffəti qorumaqdır. Oruc tutmaqda məqsəd acların halını anlamaqdır. Həccdəki məqsəd Qiyamət gününü xatırlamaqdır**

**Örtündülər, amma iffətsiz qaldılar, oruc tutdular, amma acların azuqəsini oğurladılar, Həccə getdilər, amma Qiyamət gününü yox Hacı adının şöhrətini düşündülər. Bəşər övladı daim məqsədlə vasitəni səhv salır, uca ruhlar ona səmanı göstərir, o isə zivədəki paltarların qiymətini hesablayır.**

# Dövlət qəzetləri lazımdırmı?

## Qulu Məhərrəmli: “Bunlar sovet dövrünün məhsuludur”

***Azad, demokratik medianın inkişafı hər zaman dövlətin diqqətində, himayəsində olub. Bununla bağlı müvafiq qanunlar qəbul olunub, sərəncamlar imzalanıb, konsepsiyalar təsdiq olunub. Dövlət tərəfindən kütləvi informasiya vasitələrinin təkmil mexanizmini formalaşdırmağa, iqtisadi müstəqilliyinə, jurnalistikanın keyfiyyətcə yeni texnoloji səviyyəyə yüksəlməsinə, jurnalist peşəkarlığının və məsuliyyətinin artmasına, beynəlxalq əlaqələrin genişlənməsinə, dövlət və cəmiyyət üçün əhəmiyyət kəsb edən layihə və proqramlarının həyata keçirilməsinə, dövlət orqanları ilə kütləvi informasiya vasitələri arasında əməkdaşlığın möhkəmlənməsinə, jurnalistlərin sosial müdafiəsinin gücləndirilməsinə, müstəqil mətbuatın inkişafına xidmət edən bu addımların atılması təqdirəlayiqdir.***

Media elə bir sahədir ki, o hər gün, hər saat, hər dəqiqə inkişaf etməlidir, yenilənməlidir, dünyanın informasiya savaşında öz gücünü göstərməlidir. Bu baxımdan məhz ölkə rəhbərliyinin 12 yanvar 2021-ci il tarixində imzaladığı "Azərbaycan Respublikasında media sahəsində islahatların dərinləşdirilməsi haqqında" fərmanında xüsusi olaraq qeyd edilir ki, qlobal informasiya mühitinin müəyyənləşdirdiyi fəaliyyət prinsiplərinə uyğun olaraq modernləşmə, qabaqcıl texnologiyaların geniş tətbiqi, aparıcı trendlərin izlənilməsi və digər mühüm şərtləri özündə birləşdirən innovativ təkamülün yaratdığı imkanlardan Azərbaycan mediasının daha çox bəhrələnməsi, onun şəffaflıq və vətəndaş məmnunluğu prinsiplərinə əsaslanan, cəmiyyətin obyektiv və peşəkar şəkildə məlumatlandırılmasına xidmət edən fəaliyyətinin stimullaşdırılması üçün bu sahədə əsaslı islahatlar aparılmasına zərurət yaranmışdır.

Fərmanda qeyd edilən bu zərurəti hər birimiz hiss edirik və bu zərurət vacibdir. Uzun müddət mətbuat sahəsində çalışan birisi kimi mənim bu islahatlarla bağlı çoxlu sayda təkliflərim var. Yəqin ki, növbəti məqalələrimdə buna toxunacam . Bu günkü mövzum isə dövlət qəzetləri ilə bağlıdır. Bununla bağlı media sahəsində yetərincə təcrübəsi olan şəxslərin və özümün fikirlərimi sizinlə bölüşməyə qərar verdim.

Bildiyimiz kimi dövlət nazirlik və komitələrinin orqanı olan onlarla qəzet və jurnallarlər var. Onlar təmsil olunduqları qurumlarn fəaliyyətlərini öz səhifələrində işıqlandırılar. Bunları sahəvi media orqanları adlandırırıq. Bu bir faktdır ki, bu gün həm dövlət, həm də özəl qəzet və jurnalların satışı qənaətbəxş deyil. Bu da bir faktdır ki, alıcılıq kütləsinin az olmasına baxmayaraq müqayisədə özəl qəzetlər dövlət qəzetlərindən daha çox satılır və oxunur. Bu da deməyə əsas verir ki, dövlət qəzetləri təmsil etdiklər qurumların fəaliyyətini yetərincə işıqlandıra bilsələr də oxucuya çatdıra bilmirlər. Məsələn, kiminsə hansısa informasiya naminə kənd təsərrüfatı nazirliyinin "Kənd həyatı" qəzetini və yaxud da dini qurumlarla iş üzrə dövlət komitəsinin "Cəmiyyət və din" qəzetini alacağı inandırıcı görünmür. Elə isə bu cür qəzetlərə xeyli miqdarda dövlət vəsaitinin xərclənməsinə nə ehtiyac var?

Yuxarıda qeyd etdiyim səbəblərdən irəli gələrək bu xərcləri müvafiq layihələr formasında özəl mətbuata yönəldərək həm dövlət qurumlarının fəaliyyətini normal formada işıqlandırmaq, həm də özəl mətbuatın stimullaşdırılmasına şərait yaratmaq olar. Məsələn, dövlət qurumlarının tender elanlarını və yaxud ölkədə keçirilən auksiyonlar, hərracları özəl mətbuata yönəltməklə məhv olunmuş reklam bazarının yerini qismən də ilsa doldurmaq olar.



**Müsahiblərimlə bu iki məslələni müzakirə etmişəm. Mətbut Şurasının sədri Əflatun Amaşov** bildirir ki, rəhbərlik etdiyi Şuranın müxtəlif illərdə mövcud istiqamətdə təklifləri olub: "Bəli, dövlət qurumlarının qəzet və jurnalları var. Məsələyə onlara nə dərəcədə ehtiyacın olması kontekstində baxmaq istəməzdim. Hər bir dövlət qurumu özü müəyyənləşdirir ki, nəyə ehtiyac duyur. Sadəcə səmərəliliyə və reallığa diqqət yetirmək fikrindəyəm.

Dövlət qurumlarının mətbu orqanları bir növ, bülleten xarakterlidirlər. Onlardakı materiallar görülmüş işlərin icmalıdır. Bəzən konkret məqamlarla bağlı geniş təhlillərə də rast gəlinir. Əksər hallarda o təhlillərə ki, sahəvi əhəmiyyət daşıyır. Sahəvi məsələlərdən isə nazirliyin və ya dövlət komitəsinin mətbu orqanının hazırda xitab etdiyi auditoriya onsuz da xəbərdardır. Bunlar kimlərdir? Nazirliyin və onun strukturlarının əməkdaşları. Yəni prinsipcə onlar işlədikləri qurumun işinin nədən ibarət olduğunu bilirlər.

O biliklərdən sadə insanlar, yəni real, daha geniş auditoriya nə dərəcədə faydalanır? Hər bir halda məqsəd dövlət qurumunun gördüyü işləri geniş təbəqələrə çatdırmaqdan ibarətdirsə o zaman yaxşı olardı ki, həmin sahəvi qəzetlərdə və ya jurnallarda yer alan məsələlərin daha geniş auditoriyaya çatdırılması təmin edilsin. Bunun yolu isə çox sadədir.

Hər bir dövlət qurumu özünün mətbu orqanının çıxarılmasına maliyyə vəsaiti ayırır. Abunə ilə fəaliyyət göstərənlər var. Bəzən xərclər başqa cari mənbələr hesabına qarşılanır. Qanunla isə dövlət qurumlarının büdcələrində təbliğat işləri üçün nəzərdə tutulan vəsait mövcuddur. Yaxşı olardı ki, həmin vəsait qəzet və ya jurnal buraxmaqdansa, bilavasitə informasiya işinə sərf edilsin. Yəni həm mövcud qəzet və jurnallarda çalışanlar belə desək, informasiya işçisi kimi saxlanılsın, yəni onlar özlərinin əvvəlki işlərini görsünlər. Qəzetin və ya jurnalın ərsəyə gəlməsi üçün nəzərdə tutulan, yəni ümumən təbliğat işinə ayrılmış vəsait isə ictimai rəyə daha geniş təsiri ilə seçilən kütləvi informasiya vasitələrinə yönləndirilsin. Hesab edirəm ki, bu, həm ikincilərin maliyyə imkanlarını yaxşılaşdıracaq, həm birincilər lazımsız xərclərdən xilas olacaqlar, həm də təbliğat xərcləri daha səmərəli istiqamətə ayrılacaq. Məsələn, hansısa dövlət qurumunun mətbuat orqanında onun üçün vacib əhəmiyyətli təhlil gedəcəksə, daha yaxşı olmazmı ki, həmin təhlil "Ədalət", "525-ci qəzet", "Şərq" qəzeti kimi qəzetlərdə yer alsın? Məncə, çox yaxşı olar.

Ümumən bu məsələyə medianın iqtisadi imkanlarının artırılmasına dəstək kimi yanaşmaq lazımdır. Mətbuat Şurasının müxtəlif illərdə mövcud istiqamətdə təklifləri olub. Daha doğrusu, təkliflərdən biri bu olub".



**Professor Qulu Məhərrəmli** isə bildirir ki, bu qəzetlər jurnalistika məhsulu deyil: ""Bunlar sovet dövrünün məhsuludur. Bəlkə də yeni yaradılan qurumlarda buna ehtiyac var. Məsələn tutaq ki, vergilər nazirliyinin təbliğat işi aparmaq üçün buna ehtiyacı olsun. Yəni bu qəzetlər sahə qəzeti sayılır. Bu gün bir çox nazirliklər bundan imtina edib.

Lakin mövcud olanlar var. Amma mahiyyət etibarı ilə bu qəzetlər jurnalistika məhsulu deyil və bunlar təbliğat təşviqat vasitələri hesab olunur. Yəni, sahə adamları arasında yayılan bir qəzetdir. Mən şəxsən bunlara ciddi ehtiyac görmürəm. Burda iki məsələ var.

Birincisi odur ki, həmin sahə qəzetləri istər qəzet olsun, istər jurnalı olsun bunlar həmin qurumun daxili imkanları hesabına çap olunur. Yəni dövlət büdcəsindən onlara xüsusi olaraq maliyyə ayrılmır. Ona görə də bunun ümumi mətbuatın maliyyələşməsi ilə heç bir əlaqəsi yoxdur. Amma tutaq ki, bir nazirlik qərar verir ki, ona təbliğat və təşviqat lazımdır. Onlar bunu xüsusi vərəqələrdə çap edib yaya bilər. Amma yoxsa bunun gündəlik qəzeti kimi olub olmadığını həmişə gündəmdə saxlamaq lazımdı. Məsələn, indi bizim İdman nazirliyinin "İdman qəzeti" var. Və digər müxtəlif qurumların öz qəzetləri, saytları var. Bunların maliyyələşməsi öz daxili hesablarınadı. Dövlət bunlara maliyyə ayırmamalıdır və heç ayırmır da. Burda problem ondan ibarətdir ki, onlar o qəzetlərə ayırdıqları vəsaitləri televiziyalar, qəzetlər üçün reklam şəklində və yaxud reklam xarakterli məqalələr kimi ayıra bilər ki, qəzetlərdə bundan faydalana bilər. O mənada onların faydası dəyə bilər. Mən sizə deyim ki indiki şəraitdə, internet dövründə daxili auditoriya üçün hamının istifadə etdiyi saytlar olduğu üçün o qəzetlərə ümumiyyətlə ehtiyac yoxdur. Elə məlumatlar var ki, onun ölkə miqyasında yayılması çox əhəmiyyətlidir. Belə məlumatları mətbuat xidmətləri vasitəsilə yaymaq olar. Və yaxud sosial mövzular var ki, nazirliklər bunların yazılması üçün müsabiqələr elan edir. Bax bu yolla mətbuata dəstək göstərmək olar. Amma, heç kimin oxumadığı qəzetə pul ayırmaq, yumşaq desək, problemli məsələdir".

**Jurnalist Ekspert Mərkəzinin rəhbəri Ceyhun Musaoğlu**nun fikrincə isə dövlət qurumlarının KİV nümunələri müasir tələblərə cavab verməlidirlər: "Məsələnin birinci hissəsi ilə bağlı bildirim ki, dövlət qəzetlərinə ehtiyac var, sadəcə həmin mətbu orqanların bütün mənalarda müasirləşməyi vacibdir. Dövlət qurumunun mətbu orqanı həm birinci, əsas mənbə rolu oynaya bilər, həm də həmin orqanın funksiyasını, gördüyü işləri oxucuya dəqiq, ətraflı çatdıra bilər. Hansısa qurumun fəaliyyəti barədə onun özünün məlumatı, bilgisi təbii ki, başqalarından çoxdur. Yaxşı olar ki, həmin qəzet və jurnallar oxucuları bu bilgilərlə təmin etsinlər. Ümumiyyətlə, mətbuat orqanlarnın çoxluğu, rəngarəngliyi informaisyanın ali mərtəbəyə çıxdığı dünyada vacib və qaçılmaz şərtdir. Amma gərək dövlət qurumlarının KİV nümunələri müasir tələblərə cavab verməyi təmin etsinlər. Əlbəttə oxucuya lazımı informasiyanı verməyən mətbu orqana ayrılan vəsaiti daha səmərəli işlərə xərcləmək olar və sualınızda vurğuladığınız kimi, büdcədən dövlət orqanlarının mətbuatına ayrılan pulu digər müstəqil qəzetlərin inkişafına xərcləmək daha doğru seçimdir. Ancaq bir daha qeyd edim ki. dövlət qurumlarının mətbu orqanlarını daha oxunaqlı, daha gərəkli səviyyəyə qaldırmaq mümkündür, hətta vacibdir".



**Nicat Novruzoğlu**

### *İlqar Atayev: Stul kimi insanlar çoxdu*



**Moskvada Vanya dayı vardı. İçəndə yaxşı fəlsəfi söhbət edirdi. Deyirdi ki, stul heç vaxt şikayət etmir. Üstünə paltar yığırsan, oturursan. Hərdən ayaqqabı ilə üstünə çıxıb lampa dəyişirsən, cırıldıyır, amma dinmir. Sərxoş gələndə təpik vurub aşırırsan. Sakitcə qəbul edir. Öz vəzifəsini yerinə yetirir. Və günlərin bir günü səssiz sınır...**

**Stul kimi insanlar çoxdu. Kimisi intihar edir, kimisinin ürəyi qəfil dayanır, kimisi sərxoşluğa qurşanır... Səssiz...**

### *Rusiyada Navalnıya görə eks-deputat həbs edildi*

**Rusiyanın Perm diyarının qanunverici məclisinin keçmiş deputatı Konstantin Okunevə 5 sutkalıq inzibati həbs cəzası verilib.**

Bu məlumatı Rusiya mətbuatı yayıb.

O, 31 yanvarda Navalnının azad olunması üçün qanunsuz aksiya təşkil etməkdə ittiham olunub.

**MEHRİBAN**



## Pənahəli xanın sarayı erməni vandalizminə məruz qalıb

**Ermənilər işğal etdikləri digər rayonlarda olduğu kimi, Ağdamda da Azərbaycanın tarixi-mədəni irsinə qarşı görünməmiş vandalizm həyata keçiriblər. Rayondakı abidələr, mədəniyyət ocaqları, məscidlər, qəbiristanlıqlar dağıdılıb, təhqir edilib, bəziləri isə erməniləşdirilib.**



AZƏRTAC xəbər verir ki, Ağdam rayonunda erməni vandalizminə məruz qalan tarixi-memarlıq nümunəsi olan tikililərdən biri də Qarabağ xanlığının banisi Pənahəli xanın imarətidir. XVIII əsrə aid bu tarix-memarlıq abidəsi xan nəslinin ilk mülklərindən olmaqla, iki binadan ibarətdir. İşğal edilən ərazilərdəki məscidlər, məzarlıqlar kimi Pənahəli xanın imarəti də ermənilər tərəfindən təhqir edilib. Tövlə kimi istifadə edilən xan sarayında inək və donuz saxlanılıb. Xan sarayı yaxınlığında yerləşən və Qarabağ xan nəslinin bir çox nümayəndələrinin dəfn edildiyi İmarət qəbiristanlığı da erməni vandalizminə məruz qalıb. Pənahəli xanın, İbrahimxəlil xanın və Mehdiqulu xanın türbələri və Xurşidbanu Natəvanın qəbirüstü abidəsi də burada yerləşir. Erməni vandalları İbrahimxəlil xanın türbəsini və Qarabağın sonuncu hakimi Mehdiqulu xan Cavanşirin qızı Xurşidbanu Natəvanın qəbirüstü abidəsini dağıdıblar.

**Məscidlərin, tarix memarlıq abidələrinin dağıdılması, mal-qara saxlanılaraq təhqir edilməsi erməni vandalizminin bariz nümunəsidir və bu fakt təkcə Azərbaycanın deyil, ümumilikdə dünyanın mədəni irsinə barbar münasibət kimi beynəlxalq ictimaiyyət tərəfindən kəskin qınanmalıdır.**

## AMEA-nın alimi Gənclər və İdman Nazirliyi tərəfindən təltif edilib

**AMEA Fəlsəfə və Sosiologiya İnstitutunun şöbə müdiri, AMEA-nın YAP Ərazi Təşkilatının üzvü, gənc alim, siyasi elmlər üzrə fəlsəfə doktoru Günel Məlikli Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi tərəfindən Gənclər Mükafatına layiq görülürək, diplomla təltif edilib. O, 2020-ci ildə elm sahəsində qazandığı uğurlara görə 2 Fevral - Azərbaycan Gəncləri Günü çərçivəsində bu mükafata layiq görülüb.**

Bu gün Azərbaycan gəncliyinin şərəfli bayramıdır. Respublikamızda dövlət gənclər siyasətinin müəyyənləşdirilməsi və uğurla həyata keçirilməsi ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. 1997-ci ildə ümummilli liderimiz Heydər Əliyev fevralın 2-sini Azərbaycan Gəncləri Günü elan etdi. Ulu öndərdən yadigar qalan bu bayram həm də qəlbi qurub-yaratmaq eşqi ilə döyünən hər bir Azərbaycan gəncinin Vətən qarşısında hesabat günüdür. Ulu öndərin gəncliyə, Azərbaycanın böyük gələcəyinə inamı bu cümlələrdə öz ifadəsini tapmışdır: "Azərbaycanın müstəqilliyinin dönməz və əbədi olmasının əsas mənbəyi və təminatçısı məhz Azərbaycan gəncliyidir". Məktəb vaxtlarından fəallıq göstərməklə müxtəlif olimpiadalarda iştirak edir, ələlxüsus, riyaziyyatdan qalibiyyətlər əldə edirdim. Amma yüksək riyazi biliyə malik olmağıma baxmayaraq, siyasətə tükənməz istəyim var idi. Həyatın mənası çox və yaxud az yaşamaqdan ibarət deyil. Onun əsas mənası bu həyatda öz yerini tutmaq, mövqeyini müəyyən etmək və başqaları üçün nümunə olmaqdır.

Elm və təhsil sahəsində ulu öndər Heydər Əliyevin müəyyənləşdirdiyi siyasətin davamlılığını son 18 ildə inamla davam etdirən və onu yeni çalarlarla zənginləşdirən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev praqmatik və rasional düşüncəli siyasətçi kimi xalqın gələcəyinin məhz elm və təhsillə bağlı olduğunu çıxışlarında dəfələrlə vurğulayır, fəal milli maarifçilik xətti yeridərək, dünya təhsil sisteminə inteqrasiyanı vacib sayır




Vidalaşdığımız 2020-ci il Azərbaycan xalqı üçün uğurlu qalibiliyyət ili, haqqın ədalətin zəfər aldığı il oldu. Biz əldə etdiyimiz bu uğurlarımıza görə möhtərəm Prezidentimiz İlham Əliyevə borcluyuq. Ermənistan tərəfindən işğal olunmuş Azərbaycan torpaqlarının azadlığı uğrunda sentyabrın 27-də başlayan Vətən müharibəsində Cənab Ali Baş Komandanın rəhbərliyi altında rəşadətli Azərbaycan Ordusunun işğalçı Ermənistan üzərində qələbəsinə gənclər, bütövlükdə xalq inanırdı. Qüdrətli Azərbaycan Ordusu Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə möhtəşəm zəfər tarixi yazıldı. Bu böyük Qələbə cənab prezident İlham Əliyevin yorulmaz əməyinin, ardıcıl surətdə yürütdüyü müdrik siyasətinin nəticəsidir.

Mən bir gənc kimi, çox xoşbəxtəm ki, cənab prezident İlham Əliyevin Sayəsində Azərbaycan tarixinin ən böyük zəfərlərindən birinə şahidlik etmiş oldum. tədqiqatına həsr olunmuş "Azərbaycan Respublikasının milli inkişaf sistemi: İlham Əliyevin siyasi strategiyası kontekstində" dissertasiya işini tədqiqatçısı və "İlham Əliyevin siyasi strategiyasında milli prioritetlər" kitabının müəllifi olmağımla qürur duyuram. AMEA-nın Fəlsəfə İnstitutunun şöbə müdiri, Bakı Dövlət Universitetinin "Politologiya və sosiologiya" kafedrasının müəllimi, Azərbaycan Respublikası Silahlı Qüvvələri Hərbi Akademiyasının professoru vəzifəsində çalışıram dövlət siyasətini həm təbliğ və tədris edir.

Bütün ölkələrdə yaşayan azərbaycanlı gənclərə səmimi təbriklərimi və ən xoş arzularımı çatdırıram. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin bu günün gəncliyinə ünvanlanmış, "Gənclərə müraciət edirəm! Mən sizinləyəm, mən sizi həmişə dəstəkləmişəm. Bu gün də dəstəkləyirəm və gələcəkdə də dəstəkləyəcəyəm" sözləri Azərbaycan gəncliyinin qarşısında açılan aydın üfüqlərdir. Bizim üzərimizə düşən isə daha da əzmlə çalışmaq, biliyimizdən, potensialımızdan lazımınca istifadə etməkdir. Gənclərə demək istəyirəm ki, səylə çalışmaq, digər işlərə az zaman ayırıb, məqsədə çatmaq üçün gərgin işləmək lazımdır. Şair "Bu günü olmayanın nə dünəni olub, nə sabahı olacaq" deyib.

**Dünəni yaşatmaq bu günün salnaməsini yazacaq istedadlı gəncliyin şərəfli borcudur.**

## Azad Balyandın ruhu şad balası: Azərbaycanın Milli Qəhrəmanı Akif Əkbərovun doğum gününə

**Qarabağın cənnətin özü olduğunu sübut etməyə ehtiyac yoxdu. Hamı bilir. Bilməyənlər, xüsusən gənclər- Azərbaycan əsgərləri getdilər, öz gözləri ilə ecazkar təbiəti gördülər, gəldilər. Təsdiq etdilər: Qarış-qarış cənnətdi, bucaq-bucaq, künc-küncgözəllikdir.**





### *Bal-yan-d-ı*

gün cənnətin bir guşəsi Cəbrayılın bir köşəsi olan Balyand kəndindən söhbət açmaq istəyirik. Məlumat üçün bildirək ki, Kiçik Qafqazın cənub-şərq ətəklərində meşədə salınmış Balyand əhalinin sayına görə Cəbrayılın 4-cü ən böyük kəndidir. Bahar fəsli, yaz ayları gələndə coşub-çağlayan, uzunluğu 28 km, hövzəsinin sahəsi 100 kvadrat km təşkil edən, Araz çayının sol qolu olan Qozluçayın sağ sahilində, dağ ətəyində yerləşən kəndin mənzərəsi indi də balyandlıların yaxşı xatirindədir.

Gözəlliyi qədər də qədim olan bu kəndin tarixi XVII əsrə gedib çıxır. Yeri gəlmişkən, Balyand keçmişdə Qarakəlli adı ilə məşhur olmuşdu. Yerli əhalinin dilində ”bələn” sözünün təhrif olunmuş formasıdır. Tarixçi-araşdırmaçıların fikrincə, xalq etimologiyasına görə, əvvəllər burada balı yandıraraq alinan şəkərdən çay hazırlanarmış. radan da Balyand adı yaranmışdır.

Başqa bir məlumata görə, kənd vaxtilə Cənubi Azərbaycanın Balyand kəndindən çıxmış ailələr tərəfindən salınmışdır.

Cənubi Azərbaycanda Baland adlı kənd mövcuddur. Qeyd edək ki. kəndin qədimliyini Düldül ziyarətgahı, İspiri ocağı, Zingir ocağı da sübut edir. Balyand 1993-ci ildə Ermənistan Respublikası Silahlı Qüvvələri tərəfindən işğal edilib. Amma işğaldan əvvəl dövrünə uygun şəkildə inkişaf etmişdi. Məsələn, hər bir kəndin Kənd xəstəxanası vardı və Dağ Tumas, Quycaq, Balyand kəndlərində 11 həkim, 52 feldşer - mama məntəqəsi sakinlərə xidmət göstərirdi.

Yuxarıda dediyimiz kimi, kəndin sakinləri yerli və Cənubi Azərbaycandan gələnlər olub. Əlverişli coğrafi mövqedə yerləşməsi sonradan bura köçən tayfaların sayının artmasına səbəb olub.

Əhalisi əsasən kənd təsərrüfatı ilə məşğul olub.

Üzümçülük, taxılçılıq, baramaçılıq, heyvandarlıq əsas məşğuliyyət sahələri olub.

### *Cəbrayılın fəxri igid balyandlı*

Bu gün nəinki bu kəndin, eləcə də bütün rayonun fəxr etdiyi Azərbaycanın Milli Qəhrəmanı Akif Əkbərovun doğum günüdür. O, 2 fevral 1952-ci ildə Balyandda doğulub. 1969-cu ildə 1 saylı Beyləqan şəhər orta məktəbini bitirib. 1970-ci ildə ordu sıralarına çağırılıb.

***1991-ci il avqustun 5-də Akif Əkbərov da daxil olmaqla Beyləqan rayon polis şöbəsinin bir qrup əməkdaşı Kəlbəcər rayonundakı ”Sarı yer” yaylağındakı mülki şəxslərin təhlükəsizliyini təmin etmək üçün oraya ezam olunur. Avqustun 12-də ermənilər ”Sarı yer”ə hücum edirlər.***

***Erməni hücumunu dəf edən Akif Əkbərov bu döyüşdə qəhrəmancasına həlak olur. Beyləqan rayonunda dəfn edilib, büstü qoyulubdur. Beyləqan rayonundakı küçələrdən biri onun adını daşıyır. Azərbaycan Respublikası prezidentinin 8 oktyabr 1992-ci il tarixli 264 saylı fərmanı ilə Əkbərov Akif Abbas oğlu ölümündən sonra ”Azərbaycanın Milli Qəhrəmanı” adına layiq görülüb. Ailəli idi. Beş övladı yadigar qalıb***

### *Qələbə xəbərinə sevinən ruhlar*

2020-ci ilin 22 oktyabrında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev özünün rəsmi ”Twitter” səhifəsində bildirir:

”Rəşadətli Azərbaycan ordusu Füzuli rayonunun Gecəgözlü, Aşağı Seyidəhmədli, Zərgər kəndlərini, Cəbrayıl rayonunun Balyand, Papı, Tulus, Hacılı, Tinli kəndlərini işğaldan azad etmişdir.

Eşq olsun Azərbaycan Ordusuna! Qarabağ Azərbaycandır!”.

**Azad olmuş yurd yerlərində, şad olmuş şəhid ruhlarının varlığını duymaq nə gözəl! Gözəlim məmləkətimiz üçün canını fəda etmiş bütün şəhidlərimizin ruhu qarşısında baş əyirik!**

**Əntiqə Rəşid**

# CAMAATA ZÜLM ELƏMƏYİN...

## Zəhmət də olsa, açın, metronu!



**Çoxlarımız deyirdik ki, balam, bu sərt karantin rejimi götürülsün, məktəblər, ali təhsil ocaqları, iş yerləri fəaliyyətə başlasın! Deməyinə düz deyirdilər ey. Çünki nə vaxta qədər məktəblilər onlayn vasitəsilə təhsil alacaqdı və iş yerlərinin də ağzı bağlı qalacaqdı. Və bir də axı insanlar evdə oturmaqdan, işsizlikdən və bekarçılıqdan beziblər axı.**

İş yerlərinin və məktəblərin açılmasıyla çoxları ən azı psixoloji gərginlikdən və sıxıntıdan çıxdılar. Və gün o gün olsun ki, iri ticarət mərkəzləri, mollar işləsin. Zarafat deyil ey, düz bir ilə yaxındır ki, iri ticarət mərkəzlərinin və molların ağzı günə qalıb. Düz bir ilə yaxındır ki, həmin ticarət mərkəzlərində işləyən insanlar ailəsinə, evinə çörəkpulu apara bilmir, bekarçılıqdan və işsizlikdən təngə gəliblər.

### *Heç olmasa*

məktəblərin və kiçik iş yerlərinin açılması bu sıxıntını az da olsa aradan qaldırır, insanlarda sabaha inamı bir qədər də artır. Bunlar hamısı çox gözəl!

Bizim bir orta məktəb müəllimimiz vardı - Balaca müəllim! Rəhmətlik deyərdi ki, yaxşı danışdın. Çox gözəl, çox pakizə! İndi de görüm, keçən dəfəki dərs yadında qalıb, ya yox! Biz də coğrafiyanı əzbərləyərdik. Xala xətrin qalmasın, hansı mövzunu hazırlaşırdıqsa onu danışa bilirdik. O biri mövzular isə yadımızdan çıxırdı. Və bunu rəhmətlik Balaca müəllim yaxşı bilirdi. Və tez-tez də xatırladırdı ki, mən sizi ruhdan salmamaq üçün "5" yazıram. Ancaq siz də nə özünüzü, nə də məni aldatmayın. Bütün dərsləri və mövzuları yaxşı oxuyun. Təbii ki, biz də sevimli müəllimimizin nəsihətindən ibrət götürürdük və qüsurlarımızı təkrarlamırdıq.

İndi rəhmətlik Balaca müəllimin sözü olmasın, bunlar çox gözəl, çox pakizə! Ay hörmətli Nazirlər Kabinetinin Operativ Qərargahı! Bir qərarı verməmişdən öncə onun mənfi fəsadlarını da nəzərə alın. Ancaq təəssüf ki, bunu çox vaxt nəzərə almırsınız. Çox uzağa getməyək, fevralın 1-dən çıxardığınız yeni qərar qüvvəyə minib. Yəni məktəblər və digər iş yerləri fəaliyyətə başlayıb. Siz heç bilirsiniz, səhər, günorta, axşam saatlarında avtobuslardan istifadə edən sərnişinlər hansı zülmü çəkirlər?

### *Siz özünüz deyirsiniz ki,*

***ara məsafəsi saxlayın. Özünüz deyirsiniz və özünüz də dediklərinizə şərait yaratmırsınız. İndi biz bir-bir deyək, siz də kömək eləməsəniz, heç olmasa, eşidin: metronun "Əhmədli" stansiyasından "20 Yanvar"a işləyən M-1, M-2 avtobusları və eləcə də "Gənclik" stansiyasına qədər hərəkət edən M-1A marşrutunda fevralın 1-dən ayaqüstə durmaq mümkün deyil. Yenə fevralın 1-dən əvvəl həmin marşrutlarda sərnişinlər birtəhər ayaqüstə dayana bilirdilər. Amma fevralın 1-dən burda sərnişinlərə ayaqüstə durmaq da mümkün olmayıb. Üstəlik də yaşlı və xəstə adamlar saatlarla avtobusda ayaqüstə dura bilmirlər. Bax, bu gün mən (yəni fevralın 3-də) metronun "Xalqlar dostluğu" stansiyasından "Gənclik"ə qədər M-1A avtobusunda getdim. İçəridə adam əlindən tərpənmək mümkün deyildi. Səhhətimdə problem olduğu üçün heç mən basabas olan avtobusa minməli deyiləm. Ancaq Allah adamın əlacını kəsəndə hansı addımı desən ata bilir.***



İçəridə havasızlıqdan ürəyim sıxılırdı. Bunu görən orta yaşlı bir adam qolumdan yapışdı və əyləşənlərdən birinə dedi ki, bu kişinin vəziyyəti ağırlaşıb, qalx, otursun! O orta yaşlı adam da sağ olsin, ayağa qalxdı və mənə yer verdi.

Sonra da bir xanım cibindən dərman çıxarıb mənə uzatdı. Dedim ki, çox sağ ol, evdən çıxanda bütün dərmanlarımı atmışam.

Əlimi çantama aparıb ürək dərmanlarından birini çıxararaq qəbul elədim. Bir qədər sakitləşdim. Amma mənim kimi o avtobusda neçə-neçə yaşlı və xəstə adamlar vardı. Onların nələr çəkdiyini bir mən bilirdim, bir də həmin adamlar.

Görəsən, heç olmasa bu qərarları qəbul edən Operativ Qərargahın üzvləri çox yox, bir dəfə belə basabas yaranmış avtobuslara miniblər, ya yox?! Qoy bunlara həmin məsul şəxslərin özləri cavab versinlər. Amma nə mən, nə də hörmətli oxucularımız inanmazlar ki, Operativ Qərargahın üzvləri nəinki basabas yaranmış avtobuslara, heç oturacaqları dolmayan marşruta da minməzlər. Çünki onların hər birinin xidməti və şəxsi avtomobilləri var. Belə bir deyim var: "Sənin dərdini o adam başa düşər ki, onun da dərdi olsun".

İndi hörmətli Operativ Qərargahın üzvləri hardan biləcəklər ki, Bakıda fevralın 1-dən sonra avtobuslara minən sərnişinlər hansı çətin anlar yaşayırlar.

Biz demirik ki, Operativ Qərargah hər adama bir avtobus, bir avtombil verməlidi.

Biz deyirik ki, Operativ Qərargah zəhmət çəkib milyonlarla sərnişini bu sıxıntıdan qurtarmaq üçün metronun açılmasına icazə versin. Əks təqdirdə, bu qərar olmayana qədər hər gün basabas yaranan avtobuslarda koronavirisa yoluxma halları da olacaq, sərnişinlər ayaqüstə bir saat yarım, iki saat getməklə cəhənnəmi gözlərilə görəcəklər.

### *Bu cür "münbit" şəraitdən istifadə edən*

taksi sürücüləri də qiymətləri qaldırıb. Yanacağın qiyməti artanda bir çox taksi sürücüləri "Neftçilər" metrostansiyasının yanından "20 Yanvar"a 1 manat 50 qəpiyə gətirirdilər. Fevralın 1-dən isə bu qiymət 2 manata qalxıb. Sözün açığı, 1 manat, 1manat 50 qəpik olanda avtobuslarda basabasa getməkdənsə, o pulu verib taksiylə 20 yanvara gedirdim. Amma 2 manat olandan sonra mənim maddi durumum imkan vermir ki, yenidən taksiyə pul verim və mənzilbaşına yollanım.

Onda belə çıxır ki, mən gündə 4-5 manat yolpulu verməliyəm və üstəlik də mənim kimi digər insanlar bu pulu ödəyib harasa getməlidilər. Cüzi maaşla dolanan insanlar Operativ Qərargahın günahı üzündən niyə gündə 4-5 manat ödəməli və üstəlik də avtobusda basabasda getməklə koronavirusa yoluxmalıdır?

***Kim bilməsə də, Operativ Qərargah və Bakı Nəqliyyat Agentliyi çox yaxşı bilir ki, Bakıda 3 milyona yaxın sərnişini avtobuslarla rahat mənzilbaşına aparmaq mümkün deyil. Çünki əvvəllər bu sərnişinlərin böyük bir yükü metronun üzərinə düşürdü. Və metroda da heç vaxt indi avtobuslarda olduğu kimi, basabas yaranmırdı. Çünki avtomobil yolunda tıxaclar olsa da, metroda bu, qətiyyən mümkün deyil. Qatarlar tez-tez gəlir və hətta çox vaxt oturacaq yerləri axıra qədər dolmurdu.***

Bir neçə faktı da M-1A avtobusu ilə bağlı xatırlamaq istəyirik. Belə ki, "BakBus"un M-1, M-2 və M-2 A avtobusları uzaq məsafələr qət etsə də, metrodan metroya dayanır. Eyni zamanda, köhnə avtobuslardan ibarət olan M-1 A marşrutu isə təəssüf ki, bu qrafiki pozur, harda gəldi avtobusu saxlayır, sərnişin götürür və düşürür. Hətta fevralın 2-də bir neçə sərnişin həmin avtobusların sürücülərinə öz etirazlarını bildirdilər. Sürücü isə camaatın haqlı narazılığına bir söz demədi və susdu.

### *Ona görə də*

Bakı Nəqliyyat Agentliyi bu məsələlərə xüsusi diqqət yetirməli, qanunu pozan sahibkarları və sürücüləri məsuliyyətə cəlb eləməlidilər.

Əks təqdirdə, bu cür qanun pozuntuları uzun müddət davam edəcək Ümumiyyətlə, Bakı Nəqliyyat Agentliyinin insaf naminə deyək ki, üzərinə çox ağır yük düşür. Onlar həm öz işlərini görməlidi, həm də işləməyən metronun sərnişinlərini daşımalıdı. Bu isə birmənalı olaraq çox çətin bir vəzifədi.

Deyirlər ki, yüz dəfə imam üçün ağlayanda, bir dəfə də yezidi ağlamaq lazımdı. İndi Bakı Nəqliyyat Agentliyinin yükü o qədər ağırdı ki, məlum qurum nə qədər çalışsa da, paytaxtımızda sərnişinlərin mənzilbaşına normal daşınmasını təmin edə bilmir.

Yenə qayıdaq Operativ Qərargahın üzərinə.Və bu qərargah bir çox qərarlarıyla camaata zülm eləyir. O qərarlardan biri də Bakıda metro stansiyalarının işləməməsidir. Hörmətli Operativ Qərargah, bu camaatın əsəbləri ilə oynamayın! Məktəblərə, təhsil ocaqlarına, bir çox iş yerlərinə icazə vermisiniz, zəhmət çəkin, metronun açılmasına da razılıq verin! Əgər siz koronavirusu bəhanə gətirirsinizsə, bunlara heç də camaat inanmır. Çünki bir avtobusda 50 nəfər əvəzinə 150-200 sərnişin olur. Amma bir metro qatarında uzaqbaşı 40-50 nəfər yol gedir. İndi görün camaat hansı vəziyyətdədir. Əgər tezliklə metronun açılmasına icazə verməsəniz, onda şəhərimizdə sərnişinlərin vəziyyəti daha da ağırlaşacaq, virusa yoluxma halları bir qədər də artacaq. Görünür, bizdə bir çox məmurlar müstəqil qərar qəbul etməkdə bir o qədər də fəal deyillər. Gərək hər şeyə cənab prezident münasibət bildirə.

**Biz bunu dəfələrlə həll olunmayan problemlır zamanı hiss etmişik. Necə ki, bir neçə gün bundan əvvəl 18 şəhidin məzarı su içindəydi, heç bir aidiyyəti qurum problemi həll eləmirdi. Cənab prezident bir neçə saatın içində problemi yoluna qoydu. Əgər bütün işləri cənab prezident həll edəcəksə, onda digər dövlət qurumları nə işlə məşğuldular?!**

**Faiq QİSMƏTOĞLU**

---

# Aşıq düşmənlərin gizli dostluqları

**Biz bəzi dövlətləri sonsuza kimi düşmən, bir masa arxasında əyləşə bilməzlər deyə düşünürük. Amma söhbət siyasətdən gedirsə, masa da mümkündür, hələ ticarət də...**

Mərkəzi Kəşfiyyat İdarəsinin(MKİ), ölkə prezidenti Ronald Reyqanın etirafları, məhkəmə davalarının oduğu halda kiminlərinsə aldadıcı populist çıxışlarına inanmaq sadəcə sadəlövlük olardı.

Məlum olduğu kimi, İranda 1979-cu ildə İslam inqilabının baş verməsindən sonra regionda diplomatik və iqtisadi əlaqələrdə köklü dəyişikliklər baş verdi. Xüsusən, İrandakı ABŞ səfirliyinin tutulması İran-ABŞ münasibətlərinin dünyanın ən qatı düşmən obrazının yaradılmasına səbəb oldu. Soyuq savaş dönəmi olmasına baxmayaraq SSRİ artıq qısa zaman sonra öz mövqeyini itirəcəkdi.

Radikal teokratik şiələrin iş başında olması İranı ABŞ-ın ən yaxın dostu İsraillə qiyamətə kimi kafir-mömin profilli düşmənçiliyə çevirdi. Əlbəttə ki, İsraillə belə münasibətlərdə yalnız ABŞ yox, İranın qatı dəstəkçisi və İranın müdafiə etdiyi Hizbullah təşkilatı da böyük rol oynayırdı. İsrailin regionda hər bir hərəkətinə maneçilik törətməyə çalışan Hizbullah sonradan İsrail-ABŞ-İran arasında ipli oyuncağa çevriləcəkdi.

Hər şey 80-ci illərin əvvəllərində başladı. Bir skandal bu üç ölkənin gizli əlaqələrini ortaya çıxaracaq, məbləği ağıllara sığmaz ticarət əlaqəsi məlum olacaqdı.

### *Bütün bu əlaqələr*

***1986-cı ilin noyabr ayında ortaya çıxdı. Bu zaman ABŞ Nikaraquada solçu hakimiyyəti devirmək üçün hakimiyyətə qarşı döyüşənlərə maliyyə və silah yardımı edir, onların təlim keçməsinə köməklik göstərirdi. Amma 1986-cı ildə Nikaraquanın hakimiyyətdə olan Sandinist silahlıları tərəfindən yerli döyüşçülərə silah daşıyan bir pilot ələ keçirildi. Beləliklə dünya cəmiyyətinin düşündüyünün tam əksi məlum oldu.***

ABŞ hökümətinin 1930-cu illərdən bəri Nikaraquanın Marksist-Sandinist hökümətini devirməyə çalışması onun bəzi yerlərdə özünün belə inana bilməyəcəyi səhvlər etməsinə səbəb oldu. Nikaraqua hökümətinin dirənişi ABŞ-ı dünya ictimaiyyətində ifşa edəcəkdi.

***ABŞ Nikaraquada yerli höküməti devirməyə çalışarkən Livanda bir qrup amerikalı Hizbullahın əlinə keçmişdi. Soyuq müharibə bir yandan, digər tərəfdən ABŞ-ın qonşuluğundakı ölkələrdə hakimiyyətlərin solçuların əlinə keçməsi Reyqan hökümətini çarəsiz duruma qoymuşdu.***

### *Hizbullah rəhbərliyi*

kimsəni dinləmir və danışıqlara belə getmək istəmir. Digər tərəfdən isə nəhəng bir dövlətin terrorist saydığı təşkilatla diplomatik əlaqəyə girməsi onun üçün baş ucalığı gətirməyəcəkdi. Elə isə kim bu problemi aradan qaldıra bilərdi? Və cavab tapıldı. ABŞ-ın bir nömrəli düşməni yalnız İran bu məsələni həll edə bilərdi.

İranın Hizbullahla münasibətlərini, ona təsir etmək gücünü anlayan Reyqan hakimiyyəti İranla münasibət yaratmağı daha uyğun yol bildi.

***Bəs, İranla bu əlaqələri necə yaratmaq olardı? Bu çox təhlükəli təklif olardı. Soyuq müharibə sırasında ABŞ-ın qəbul etmədiyi bir hakimiyyətlə masa arxasında əyləşməsi onun nüfuzunu yerlə yeksan edərdi. Aranı düzəltmək üçün vasitəçi lazım idi. Bu vasitəçi isə ABŞ-ın hər mənada inandığı və etibar etdiyi İsrail dövləti idi.***

ABŞ bu problemi aradan qaldırmaq üçün dərhal qollarını çırmaladı və İsraillə İran arasında məxfi görüşlərə start verildi. ABŞ bu görüşlərdə Tehrana öz təklifini verdi: "Sən Hizbullahın saxladığı əsirləri geri qaytar, mən də sənə laızm olduğu qədər silah satım."

Bu çox gözəl bir təklif idi. Həm də gözlənilməz. İrana qarşı sanksiyalar onun silahlanmağına, ticarət əlaqələrini buxovlamışdı. Və belə bir zamanda İraq-İran müharibəsi... Belə bir göydəndüşmə təklifə yox demək ağılsızlıq olardı. İslam rejimi təklifi qəbul etdi...

***Böyük bir silah alverinin əsası beləcə qoyulmuş oldu. ABŞ silahları İsrail vasitəsiylə İrana çatdırır, İran isə həmin silahların pulunu İsrail vasitəsilə ABŞ-a göndərirdi. Hə iki tərəf bu alverdən çox məmnun görünürdü.***

ABŞ bu qeyri-leqal silah alverindən gələn pulların xərclənməsi üçün yer də tapmışdı. Bu pullar elə qeyri-leqal işlərə yönəldilməli idi.

Xüsusən, solçu hökümətləri devirmək üçün. Beləliklə, Irana satdığı silahların pulunun bir hissəsini Nikaraquada hökümətinə qarşı döyüşən silahlılara göndərirdi. İran isə aldığı silahlarla ordusunu silahlandırır, sanksiyaların yaratdığı çətinlikdən çıxmağa çalışırdı.

Amma bu çox çəkmədi. ABŞ-İsrail-İran məhəbbət üçbucağının taleyi Nikaraquada ifşa olundu.

Ələ keçən pilot ABŞ-ın yardımlarından danışacaq, sol hökümətə yardım edən dünya kəşfiyyatçıları isə bu izlə gedərək üçbucağının pərdə arxasındakı münasibətlərini ortaya çıxaracaqdı.

### *Bu olay məhkəməyə kimi uzandı*

***Budan öncəsə hadisəni yalanlamaq üçün Reyqan hökümətinin üzərinə böyük məsuliyyət düşürdü. Ölkə prezidenti dərhal televiziyalar önünə çıxdı. 6 noyabr 1986-cı il çıxışında Ronald Reyqan belə bir şeyin olmadığını bildirdi. Bütün bu ittihamların yalan, ABŞ-ı sevməyən qüvvələrin işi olduğunu söylədi. Amma onun söylədiklərinə inanmaq çox çətin idi. Ortada inkaredilməz faktlar var idi. Dünyanın ən nəhəng iki dövlətindən birinin prezidentinin yalanının üzə çıxması heç də həmin dövlət üçün baş ucalığı gətirmirdi. Hadisələri başqa məcraya yönəltmək və ya bu ticarəti kiminsə üzərinə yıxaraq ABŞ-ı bu rüsvayçılıqdan qurtarmaq lazım idi. Və ölkə prezidenti tərəfindən yeni bir çıxış hazırlandı. Reyqan bu dəfə 13 noyabr tarixində televiziyalar önünə çıxdı. Bu dəfə o baş verənlərin yalan olmadığını, həqiqətə söykəndiyini söylədi. Amma...***



Amma o bunu Hizbullah kimi təşkilatla əlaqə üçün yaradılmadığını bildirdi. Yəni bu əsirlərə görə deyilmiş. Hər halda ABŞ prezidenti nəyi etiraf etsə də Hizbullahdan çəkindiyinə görə bu cür ticarətə getdiyini deyə bilməzdi.

Təsəvür edirsinizmi, ABŞ kimi nəhəng dövlət Hizbullahdan qorxub. Bunu bir prezident necə etiraf edə bilərdi?!

Məsələdə MKİ-in əsas barmağı olduğu üzə çıxdıqdan sonra Amerika Milli Təhlükəsizlik İdarəsinin polkovniki Oliver Nos bütün məsuliyyəti öz üzərinə götürdü və istefa verdi. O, dövlətini bu biabırçılıqdan xilas etmək üçün son vəzifəsini yerinə yetirdi...

Bu hadisənin digər ilginc tərəfi isə regionda gedən İraq-İran müharibəsində yaşananlar idi. ABŞ Səddam Hüseyn rejimini bu müharibədə müdafiə edir və öz köməyini əsirgəmirdi. Amma ortaya çıxan faktlar göstərdi ki, ABŞ eyni zamanda İraqı dəstəkləməklə İrana da silah satır. Aysberqin görünən tərəfi ABŞ-ın İraqı dəstəkləməsi, eyni zamanda isə pərdə arxasında İrana silah satması beyinləri illərlə məşğul edəcəkdi.

Bu ABŞ-ın sonra göstərdiyi dəstəklərdə də özünü göstərəcəkdi. İki müharibə edən dövlətlərdən birini açıq aşkar müdafiə edəcək, digərinə isə tamaşanın arxasından əlini uzadacaqdı. Deyildiyi kimi ABŞ-ın dostları yox, əbədi mənafeləri var.

XXI əsrdə də bu tip hadisələr yaşanmaqda davam edir. Ara-sıra ABŞ-İran arasında münasibətlər tarıma çəkilir, aradasa yumşalma və ya münasibətlərdə siyasi sabitlik yaranır. Pərdə araxasında isə hansı oyunların getdiyindən xəbərsizik.

### *İrana qarşı sanksiyalar*

yenə də davam edir. Bəs, İran öz ordusunu silahlandırmaqda, dövləti maliiyələşdirməkdə hansı metodlardan istifadə edir. Hər şey əslində çox dərin göründüyü kimi də bəsitdir. Bəzi məsələrdə bəzi qərb ölkələrinə İranda həmişə radikal hakimiyyətin mövcud olmasından sərf edici ikinci vasitə yoxdur. Hətta radikal rejimə qarşı ayaqlanma olduqda bəzi qərb işbazları qollarını çırmalayaraq hakimiyyətə öz yardımı göstərir. Təbii ki, yenə pərdə endikdən sonra.

***Sanksiyalar zamanı İran öz neftini qeyri-leqal yollarla satmağa məcbur olur. İranın ən böyük neft yataqlarına malik oduğunu nəzərə alsaq hər şey aydındır. Əvəzində qərb ucuz neftə sahib olur, eyni zamanda neftə olan tələbatını ödəyir, İran rejimi isə pul qazanır. Hətta bu nə qədər ucuz alınsa da neft zənginliyi İranın böyük pullar əldə etməsinə köməklik göstərir.***

Bu gün Hind okeanı hövzəsində qərbin hərbi-dəniz qüvvələri keşik çəkir. Onların izni olmadan hər hansı bir tankerin İran neftini daşınması mümkün deyil. Qıraqdan hər şey qanuni görünə bilər. Hətta İran başqa dövlətlərə neft satsa da belə əvəzində ABŞ-ın neft vasitəsilə "peşkəş"ini görməli olur. Bu peşkəş isə ucuz qiymətə satılan neft məhsullarıdır. Hazırda Fars körfəzi hövzəsində çoxlu sayda neft ayırma zavodları və limanlar fəliyyət göstərir ki, onların 50%-dən artığı qeyri-leqal fəaliyyət göstərir. Həmin zavod və limanlara isə yəhudi və qərb iş adamları-kəşfiyyatçıları tərəfindən nəzarət olunur.

Orada çıxarılan neft məhsulları adətən dövlət sənədlərindən gizlədilir. Sanki bu neft yerin altından çıxardılmayıbmış. Həmin neft məhsulları sonradan əl dəyişilərək qanuniləşərək İran nefti olmaqdan çıxır və başqa ölkənin çıxardığı neftə çevrilir. Daha sonrasa o nefti qərb dövlətləri qanuni formada almış olur.

**Əlbəttə, İranın statistikaya görə çıxarılan neft həcmi və onu satdığı ölkələr var. Amma biz qeyri-leqal, sənəd üzərində olmayanlardan danışdıq.**

**Emin Piri**

---

## Şahin İsmayılov: Onlar əvvəlki kimi daş daşıyırlar…



**Firon kahinlərinə müraciət edərək deyir:**

**- Baxın, aşağıda hərəsi bir daş aparan zəncirlərə bağlanmış qulların sırası var. Onları çoxlu əsgər mühafizə edir. Nə qədər çox qul varsa, biz bir o qədər üsyandan çəkinməliyik. Biz nəzarəti gücləndiririk. Biz qulları yaxşı yedidizdirmək məcburiyyəntindəyik. Əks halda onlar ağır fiziki yükün öhdəsindən gələ bilməzlər. Lakin onlar yenə də tənbəl və üsyana meyillidirlər.**

**- Baxın, onlar necə də ləng hərəkət edirlər. Mühafizəçilər isə heç cavan və sağlam qulları belə qamışla vurmurlar. Lakin onlar daha cəld işləyəcəklər. Onlara nəzarətçilər lazım olmayacaq. Nəzarətçilər də qul olacaqlar. Bunlara nail olmağın bir yolu var.**

**Bu gün qürubdan sonra fironun əmrini əhali arasında yayın. Bu əmrdə belə deyiləcək: "sübh açılan zamandan etibarən bütün qullara azadlıq verilir.**

**Şəhərə çatdırılmış hər bir daşa görə azad insan bir sikkə alacaq. Sikkələri yeməyə, geyimə, mənzilə, şəhərdə qəsrə və şəhərin özünə dəyişmək olar.**

**Bu gündən etibarən siz azad insanlarsınız"… Növbəti günün səhəri firon və kahinlər yenidən süni dağda yaradılmış meydana çıxırlar.**

**Onların şahidi olduqları mənzərə hər kəsi heyrətləndirmişdi. Minlərlə insan, keçmiş qullar, bir birilərini ötərək dünən daşıdıqları daşlardan daşıyırdılar. Hətta bəzi insanlar tər içində qalaraq iki daş daşımağa çalışırdılar. Bir daş daşıyanlar qaçırdılar. Ətrafı toz bürümüşdü. Bəzi nəzarətçilər də daş daşıyırdılar.**

**Özlərini azad hesab edən insanlar daha çox sikkə qazanmağa çalışırdılar.**

**Firon və kahinlər yaranmış vəziyyətdən zövq alaraq daha bir neçə gün bu mənzərəni seyr edirdilər.**

**Bu zaman böyük dəyişiliklər baş vermişdi. Qulların bir hissəsi kiçik qruplarda birləşmişdilər, özlərinə arabalar düzəldərək daşları onlarda daşıyırdılar.**

**- Onlar daha çox ixtiralar edəcəklər, - deyə firon fikirləşirdi, - artıq daxili nökərlər də əmələ gəliblər: su və qida paylayan şəxslər… Daha sonra onlar özlərinə müdirlər və hakimlər seçəcəklər. Qoy, seçsinlər. Onlar axı özlərini azad hesab edirlər. Məzmun isə dəyişməyib.**

**Onlar əvvəlki kimi daş daşıyırlar…**

# "Cəbrayıllını vurmağa çalışmayın"

*Açığı deyim ki, Anar Cəbrayıllı barədə yazı yazmaq heç bir zaman ağlımda olmayıb. Elə Anarın ətrafında söz-söhbət başlayanda da onu müdafiəyə qalxıb haqqında böyük bir yazı verməmişəm, iki cümlə yazıb fikrimi izah etmişəm. "Facebook" hesabımda qeyd etmişəm ki, səhər saat 6 belə olmasına rəğmən nə zaman Anara yazmışamsa, demişəmsə, su gəlmir, Anar Cəbrayıllı təmkinlə cavab verib, problemi həll etməyə çalışıb. Anar Cəbrayıllının jurnalistlərin dostu olmasını mən mətbuatda olduğum bu iki il müddətində sezmişəm. Amma son günlər bəzi "JURNALİST"lər tərəfindən Anar Cəbrayıllıya qarşı qarayaxma kompaniyasının başladılması sözün açığı məni üzür, hətta buna görə təəssüf edirəm. Belə ki, fikirlərinin təhrif olunaraq xalqa təqdim olunması, sözlərinin qeyri-obyektiv şəkildə insanlara çatdırılması qeyd etdiklərim sırasındadır. Jurnalistikanın prinsiplərindən (informasiyanın dəqiqliyi, tamlığı, qərəzsizlik) anlayışı olan jurnalistlər, yəqin ki, nə demək istədiyimi başa düşürlər. Anara qarşı qərəzli mövqe sərgiləməklə bəzi "JURNALİST"lər, görəsən, jurnalist etikası baxımından bunun yolverilməz olduğunu dərk edirlərmi?*



*Biz müəllimlərimizdən belə görüb, belə götürüb, belə öyrənmişik ki, verilən məlumatın dolğunluğu, əhatəliliyin təmin olunması jurnaslistikada əsas məsələlərdən biridir. Anar Cəbrayıllının fikirlərinin yaryarımçıq şəkildə çatdırıldığı zaman hansı peşəkar jurnalist fəaliyyətindən söhbət gedə bilər? Biz o "JURNALİST"ləri peşəkar adlandıra bilərikmi?*

*Hər bir jurnalistin peşə fəaliyyətinə vicdanla yanaşmasını tələb edən qərəzsizlik informasiyanın tamlığı prinsipi ilə qarşılıqlı əlaqədədir. Əgər jurnalist qərəzlidirsə, informasiyanın dürüstlüyü, tamlığı prinsiplərinin reallaşması da qeyri-mümkün olur. Balanslaşdırılmış informasiya yalnız qərəzsizlik şəraitində təmin olunur. Odur ki, peşə fəaliyyətini qərəzsiz, vicdanla yerinə yetirməyə çalışan jurnalistlərə səslənirəm, Anar Cəbrayıllını hər nə vəchlə olursa, olsun, yalan yerə vurmağa çalışmayın. Ən azından peşə etikasına görə...*

**Rövşən Tahir**

## "Peyvənd millətçiliyi" yeni fəsadlar yaradacaq



"Peyvənd millətçiliyi" yeni koronavirus mutasiyasının ortaya çıxmasına səbəb ola bilər.

Bunu Ümumdünya Səhiyyə Təşkilatının baş direktoru Tedros Qebreyesus deyib.

Onun sözlərinə görə, ölkələr arasında əməkdaşlığın zəifliyi bütün dünyada vaksinasiyanın qarşısında duran ən böyük maneədir. O, peyvənd variantlarının sayının artmasına rəğmən onun qlobal tələbin kiçik bir hissəsini ödədiyini bildirib.

Qebreyesus dünya əhalisinin 16 faizinin cəmləşdiyi zəngin ölkələrin peyvənd ehtiyatının 60%-ni aldığını bildirib. Onun sözlərinə görə, əgər dünya əhalisinin böyük hissəsi peyvənd olunmasa, o zaman zəngin ölkələrin səyləri məhsuldar olmayacaq.

**MEHRİBAN**

# Elroman Əlizadə: "Mənə AYB-dən heç bir dəstək gəlməyib"

***Adalet.az son dövrlər sosial şəbəkədə məşhurlaşan gənc şair Elroman Əlizadə ilə müsahibəni təqdim edir.***



**- Elroman, son dövrlər parladın. Şeirlərin paylaşıldı, ciddi adamlar təqdim elədi səni. Ədəbi mühitdə sosial şəbəkədə vasitəsi ilə bir anda parladın. Çoxdan yazırsan, ya necə oldu? Bir şeir yazdın, gördün sevirlər, davam elədin?**

- Açığı, bu məsələdə karantinin çox böyük təsiri oldu. Sözün həqiqi mənasında bikar qalmışdım. Yazmağına çoxdan yazıram, rəhmətlik Məlik Cahanın sayəsində də çox şey öyrənmişdim, ancaq üzə çıxarmırdım. Bir neçə il idi ki, dostlarım onsuz da mənə tez-tez facebook aç deyirdilər, birdən ağlıma verdi və şeirlərimi sosial şəbəkədə paylaşmaq qərarına gəldim. Əvvəllərdə şeirlərimi 2-2, 3-3 paylaşırdım. Gördüm, ciddi mənada reaksiya yaxşıdır. Hətta gözlədiyimdən qat-qat yaxşı. Bununla başladı. Sonrası da məlum.

**- Adətən, sosial şəbəkələrdə yaradıcı insanların müxtəlif məsələlərə sərt reaksiyasını görürük. Bunu bəzən daha çox kütləyə çatmaq üçün də edirlər. Necə düşünürsən, içindən keçmir heç? Yoxsa, deyirsən, mən ancaq sənətlə məşğulam? Heç bir məsələyə fikrim yoxdur?**

- Belə şeylər mənasızdır mənə görə. Özünü gözdən salmaqdan başqa bir şey deyil. Tək bu məsələyə yox, demək olar ki, sənətdən başqa gündəmdəki heç nəyə fikir vermirəm. Mən Şuşalıyam. Hələ müharibə başlamamışdan qabaq Şuşanın işğal günündə demək olar ki, hər kəs normal olaraq bu məsələ ilə bağlı post paylaşmışdı. Ancaq mən həmin gün sevgidən bir şeir paylaşmışdım. Düşüncələrim bir az fərqlidi. Mövqeyimi bildirməyi xoşlamıram. Mənim ictimai, siyasi, dini - bütün mövqeyim onsuz da şeirlərimdə əks olunub. Bir də təzədən dilə gətirməyin yeri yoxdu..

**- Ədəbi məsələlərə mövqeyinin necədir bir gənc yaradıcı adam olaraq? Etiraz hissin yerindədirmi? Yoxsa, başını aşağı salıb, şeirini yazıb, bir tikə çörəyini qazanırsan?**

- Mövqeyim birmənalıdır. Yaxşı şeirə yaxşı de, pis şeirə pis. Ən azından, özümü bunu anlaya biləcək qədər yetərli hesab edirəm. Ədəbiyyatda "n" qədər kruq var. Sözün əsl mənasında, kruq. Hansı ki, kimin "qardaşı" yaxşı, ya da pis yazdı, fərqi yoxdu. Mütləq şəkildə müdafiə ediləcəklər. Məni poeziyada dostlarımdan biri müdafiə etdikdə narahat oluram. Oxucularım sevərək oxuyur, bu mənə bəsdi. Yeri gələndə, inan ki, "vəkil şairlərdənsə", ən savadlı və yaxşı müdafiəni onlar edirlər. Çörəyə də qalanda, sevdiyin işlə məşğul olsan, çörək onsuz da gələcək. Təbii, dərdin təkcə çörəkdirsə. İkinci versiya yoxdur.

**- Səncə, oxucularım deməyə bir az tələsmirsən ki? Kitabların necə, satılırmı, alırlar həmin oxucuların?**

- Açığı, məhz elə oxucularım aldı. Mən kitabın ilk nəşrini vuranda cəmi 50 nüsxə ilə kifayətləndim. Qohum-qonşudan başqa kiminsə alacağını düşünmürdüm. Tam əksi oldu, bir söz var, "yadlar gəlir doğma olur, yaxın olur". Qohumlarıma kitabı gücbəla ilə satdım, ya da sata bilmədim. Ancaq təsadüfi deyil ki, oxucularımın sayəsində 1 ayda 3 nəşr vurmağa məcbur oldum..

**- Ədəbi məsələlərə mövqeyin deyəndə həm də prosesləri nəzərdə tutmuşdum. Bir az da konkretləşdirək. Hazırda AYB-nin kurasiyasında olanda qəzetdə müxbir kimi işləyirsən. AYB-nin fəaliyyətinə mövqeyin necədir? Razısanmı, dəstəkləyirsən?**

- Dəstəkləyirəm. AYB-nin, ya da kurasiyasındakı heç bir layihənin mənə ziyanı dəyməyib. Eləcə də, heç kəsə ziyanı dəyməyib. Əgər kiməsə xeyri dəymirsə, bu o demək deyil ki, daş-qalaq olunmalıdır. Sənə ziyanı dəymirsə, nə var, nə var xeyri də dəymirsə, niyə daş-qalaq etməlisən? Bunu tam səmimi deyirəm. Bu təkcə AYB üçün keçərli deyil. Mənə AYB-dən heç bir dəstək gəlməyib. Sadəcə, kor-kor, görgör.

**- Məsələn, AYB-nin verdiyi təqaüdləri ədalətli sayırsanmı? Səncə, hər il o təqaüdlər haqqı olan adama verilir, yoxsa kimə gəldi, daha çox öz lazım bildiklərinə? Ümumi olaraq AYB-yə ayrılan pulların ədəbiyyat üstünə xərclənməsinə də bir etirazın yoxdur? Hər şey yaxşıdır və ən yaxşısı nədirsə onu edirlər?**

- Kimə görə, nəyə görə ədalət? Hazırda heç mən AYB üzvü də deyiləm. AYB-yə ayrılan pulların ədəbiyyat üstünə xərclənməsi? Yaxşı görək, olmayan bir şeyə nə xərcləməkdən söhbət gedə bilir? Bu dəqiqə facebooku silib 1 il yoxa çıxsam, bir nəfərin də yadında qalmayacam. Eləcə də, bütün hamı. Hazırda Azərbaycanda ədəbiyyat anlayışı Facebook sosial şəbəkəsi ilə çərçivələnir. Bu gün feysbuk sosial şəbəkəsi silinsə, 100 il sonra Azərbaycan ədəbiyyatının taleyi Atlantiya ilə eyni olacaq. Heç var olubmu, olmayıbmı, əfsanə kimi danışılacaq. Yaxşı, deyək ki, AYB yerli-dibli ləğv olundu. Kimə nə xeyri dəyəcək? Varlığı kimə ziyan verirdi ki, yoxluğu da xeyir versin?

**- Yox, konkret olaraq ortada maliyyə məsələsi var. AYB-yə ayrılan pulların ədəbiyyata xərclənməsini təsqid edirsən, yoxsa bəzi həmkarların dediyi kimi "yeyinti" məsələsi ilə razısanmı? Təqaüdlər verilən adamların çoxunu ictimaiyyət tanımır. Adətən, fikirlər bu cürdür. Sənin bu məsələyə konkret mövqeyin nədir, yaxşı ya pis? Hər şey qaydasındadır və belə də olmalıdırmı deyirsən? AYB rəhbərliyi etdiyi hər şeydən razısan?**

- Yeyinti məsələsi? Əzizim, ictimaiyyətin tanımaması məsələsinə qatılıram. Ancaq bu o demək deyil, həmin adam təqaüdə layiq deyil. O təqaüdlə bağlı məsələ sırf mətnin qiymətləndirilməsidisə, mən də həmin təqaüdə (daha artığına!) layiqəm. Sabah haqqımı alsam, çoxluq tərəfindən mən də "tanınmayan obraz" kimi təqaüd almış olacam. Hər şey görünən tərəfindən qavranılır, bir də görünməyən tərəfinə baxmaq lazımdı. Hər şey qaydasındadırmı? Yox, deyil. Belə olmalı deyil, daha yaxşı olmalıdır, bunun olması üçün mən də ədəbiyyata xidmət edəcəm.

**- Həmyaşıdların arasında bəyənmədiyin şairlər varmı? Ad çəkə bilərsən? Özünü onlardan üstün görürsən, amma onlar səndən daha çox tanınır, dəyər görür. Varmı beləlləri?**

- Söhbət sırf həmyaşıdlarımdan gedirsə, öz potensialımda heç kəsi görmürəm. Adlarını çəkmək, onları boş yerə reklam etmək olacaq. Antireklam da reklamdır. Məndən 8-10 yaş böyük olan və daha yaxşı mətn ortaya qoyan şairlər var. Amma qoysunlar da, bir zəhmət. Mən adicə bu gün yazdığım mətnə baxanda dünənki gözümdən düşür. Qaldı ki, onların bir elə yaş təcrübəsi var. Fərdlərə, ümumi götürəndə "yaş-ortaya qoyulan mətn" tələbini gənclərdən ödəyən çox azdır, barmaqla sayılacaq qədər. Bu gedişatı ömrünün axırına qədər sürdürə bilsən, ciddi qələm adamı sayılırsan. Yoxsa nə var, 3-5 il yaxşı yazıb, ömrünün sonuna qədər həmin 3-5 ilin çörəyini yeməyə?Adlarını çəkmək istəmədiklərim bir neçə dəfə mənim adımı çəkdilər cavab verim deyə, vermədim. Bilirdim ki, istədikləri də elə bu idi.

**- Müsahibə üçün təşəkkürlər, Elroman. Uğurlar arzu edirik.**

- Çox sağ olun, mən təşəkkür edirəm.

**Orxan Saffari**

# VƏTƏN SİZƏ OĞUL DEDİ

***İtkin düşdüyü bildirilən daha bir hərbçimiz şəhid olub***



**Azərbaycan Ordusunun müddətdən artıq xidmət edən (MAXE) hərbi qulluqçusu, 1992-ci il təvəllüdlü Tural Saləddin oğlu İsayevin Vətən müharibəsində şəhid olduğu müəyyənləşib.**

**Şəhid anadan olduğu Siyəzən rayonu, Yenikənd kəndinə gətiriləcək və dəfn edilib. Tural ailənin yeganə oğlan övladı olub.**

***Şəhidimiz Hüseynli İbrahim***



**Hüseynli İbrahim İsa oğlu 30 may 1993-cü ildə Yevlax rayonu Qoyunbinəsi kəndində anadan olub.**

**2010-cu ildə orta təhsilini vurduqdan sonara Naxçıvan MR-a hərbi xidmətə yollanır və burda hərbi xidmətini başa vurur. İbrahim 2014-cü il aprel ayının 10-dan sonra MAXE olaraq hərbi xidmətə başlayır. 2016-cı il aprel döyüşlərində iştirak edir. 22 noyabr 2019-cu ildə ailə həyatı qurur. 27 sentyabr Vətən müharibəsində həm tibb qardaşı olaraq, həmdə döyüşçü olaraq şücaət və mərdliklə döyüşərək 19 oktyabr 2020-ci ildə qəhrəmancasına Şəhid olub.**

**İbrahim Hüseynlinin şəhadətindən sonra 30 dekabr 2020-ci ildə oğlu dünyaya gəlib. Şəhidimizin Vətənə əmanət övladına Alituran adı verilib.**

***Dörd dost, dörd qəhrəman, dörd Şəhid***



**İqbal Astanlı, İsrail Cəfərzadə, Əkbər Hüseynov, Səbuhi Əsədov...**

***"Canavar" postunu düşməndən azad edən şəhid mayor***



**Mayor Rahib Babayev peşəkar hərbçi kimi səngərdə yetişmişdi. 18 illik xidmətinin 8 ili ən çətin döyüş bölgəsində - Murovda keçmişdi. Elə Murov yüksəkliklərinin azad edilməsi uğrunda döyüşlərdə də qəhrəmancasına şəhidlik zirvəsinə yüksəldi.**

***MAXE Haqverdiyev Novruz***




**MAXE Haqverdiyev Novruz Əli oğlu 1996-cı ildə Daşkəsən rayonu Alunitdağ qəsəbəsində anadan olub. O, Vətən müharibəsində igidlik və mərdlik göstərərək 19.12.2020-ci ildə Kəlbəcər istiqamətində gedən döyüşlərdə qəhrəmancasına Şəhid olub.**

**Şəhidimiz ailəli idi. 1 yaşlı qızı İnci Vətənə əmanət qalıb.**

**MAXE Novruz Haqverdiyev Vətən müharibəsində göstərdiyi şücaət və qəhrəmanlıqlara görə "Kəlbəcərin azad olunmasına görə" medalı ilə təltif edilib.**

***Füzuli istiqamətində gedən döyüşlərdə qəhrəmancasına şəhid olub***



**Baş gizir Alıyev Vahid Abbas oğlu 18.02.1989-cu ildə Daşkəsən rayonu Alunitdağ qəsəbəsində anadan olub. O, Vətən müharibəsində igidlik və mərdlik göstərərək 02.10.2020-ci ildə Füzuli istiqamətində gedən döyüşlərdə qəhrəmancasına Şəhid olub.**

**Baş gizir Vahid Alıyev Vətən müharibəsində göstərdiyi şücaət və qəhrəmanlıqlara görə"Vətən uğrunda" və "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edilib.**

# Tənha ustad və eynəkli qoca

**Qoca bu dünyaya tünd qara eynəyinin arxasından baxardı. Eynəyinin o üzündə hansı şöhrətin dayandığını özü də yaxşı bilirdi. Lakin tamaşaçıların gözləntisinə, intizarına soyuqqanlı bir sükutla cavab verməyə davam edirdi.**

Eynəkli qoca o qızmar günəşli sentyabr günündə də susurdu. Ancaq ona görə yox ki, deməyə sözü, çəkməyə filmi qalmamışdı. Sadəcə bir zamanlar ekranlara "Yaşamaq" filmini bəxş edən sənətkar həmin gün artıq özü yaşamırdı. Qədim Kamakura şəhərinin Anyoin məzarlığında torpağa tapşırılır və məzarı üstünə tər zanbaq çiçəkləri düzülürdü.

O uzaq məmləkətdə eynəkli qocanın kim olduğunu yaxşı bilirdilər. Xatirəsini yad etmək üçün nə az, nə çox - düz 4000 nəfərlik izdiham kədərlə irəliləyir, Yokohamada yerləşən "Kurosawa Production" kino şirkətinə toplaşırdı. İnsanlar az qala 15 il əvvəl çəkilmiş "Ran" filminin hələ də qorunub saxlanılan dekorasiyaları arasında - böyük rejissorun ruhunun dolaşdığı "Qızıl otaq"da onunla vidalaşırdılar.

### *Amma heç kim bilmirdi ki,*

***cəmi 10 gün əvvəl bu gündoğan ölkədən çox-çox uzaqlarda, dünyanın tamam başqa bir bucağında daha bir əfsanə həyatdan köçmüşdü. Özü də həmin şəxs bu eynəkli qocanın yiyələndiyi peşənin nümayəndəsi idi. Lakin dünyanın bundan heç xəbəri də yox idi və bu, onun laqeyd və etibarsız siması idi. Çünki dünya eynəkli qocanı cənnət və cəhənnəmin yol ayrıcına kədərlə yola saldığı bir zamanda, o uzaq sahillərdən kimin getdiyini hələ də anlamamışdı.***

Uğurlu karyeraları boyunca bir çox şeylər - qismətlərinə Sovet İttifaqında film çəkməkdən, şəxsi kino şirkətlərini yaratmaq ehtiyacından və klassik əsərləri ekranlaşdırmaq təşnəsindən tutmuş "yeddi" rəqəminin mistikasına qədər hər bir uyğunluq onların ömür yollarının ortaq məqamları, kəsişmə nöqtələri idi. Bir azərbaycanlı üçün Dədə Qorqudu ekranda görmək nə demək idisə, bir yapon üçün də kinoteatrda öz samuraylarına baxmaq tarixi-mədəni keçmişini, mənəvi kimliyini hiss etmək baxımından eyni şey idi. Tənha ustadın o eynəkli qocadan bir geriliyi var idisə, bu da onun uzun illər sanki mühasirədə, qapalı sovet mühitinin dəmir qapıları arxasında yaşayıb-yaratmaq qisməti idi. Vaxtilə ABŞ-da - Brodveydə böyük bina boyunca afişası asılmış filminin nümayişi keçirilməsinə baxmayaraq, yuxarıda qeyd olunan səbəb tək onun yox, aid olduğu bütün rejissorlar nəslinin taleyinə yazılmışdı.

### *Ömrünün son illərində*

onu tez-tez Bakının küçələrində görmək olardı. Əlbəttə, doğma şəhərində bu çəlimsiz dahini tanıyanlar az deyildi. Bununla belə, çoxları son dərəcə müasir, şıq geyimli, başında şlyapa olan düşüncə dolu bu insanın kim olduğunu ağıllarına belə gətirə bilmirdilər. Çünki millətin başı özünə qarışmışdı, ard-arda taleyinə yazılan gözlənilməz faciələrdən təzəcə nəfəsini dərirdi, az qala kinonun nə olduğunu da yaddan çıxarmışdılar...

***Bu təzadlı illərdə tənha ustadın yaşadığı daxili təlatümlərdən heç kəsin xəbəri yox idi. Ancaq bir şey də var idi ki, gözləri nə qədər kədərli olsa da, ürəyindəki alov hələ sönməmişdi. Ondan qat-qat gənc kino işçilərinin çəkilib kənarda durduğu, bəzilərinin ölkəni tərk etdiyi, həmyaşıdlarınınsa "çəkmək, ya çəkməmək" dilemması qarşısında daha əlverişli şərait gözləyərək ömürlərini başa vurduğu bir zamanda o, hələ də yaradıcılıq axtarışında idi.***

Dağılmaqda olan imperiyanın pərən-pərən düşəcəyi aşkar görünən kino-istehsalat sistemi məğlubedilməz xarakterli ustadı təslim vəziyyətində qoya bilmədi. Sənət eşqilə vuruşdu, mübarizə apardı, şəxsi studiyasını yaratdı, dünyəvi prodüser kinosu meyarlarını əsas götürərək filmlərə maliyyə cəlb etdi və hamının başını itirdiyi o qarışıq illərdə sevimli tamaşaçılarına yeni ekran əsərləri bəxş etdi. Bütün bunları bu günün pəncərəsindən keçmişə boylanaraq müzakirə etmək nə qədər asan görünsə də, bir sənət adamının ölkənin qan-qadaya düçar olduğu, faciələr içində qovrulduğu həmin illərdən baş çıxarması, hələ üstəlik bir sənət haqqında da düşünüb, bu yolda hansısa fikirləri həyata keçirməsi, ideyalarını reallaşdırması inanılmaz dərəcədə mürəkkəb məsələ idi.





Ətrafındakı insanlara yalnız nikbinlik və həyatsevərlik bəxş edən tənha ustadın o illərdə ürəyini ağrıdan təkcə doğma vətəninin başına gələn faciələr deyildi. Çərxi-fələyin hökmündə nəslinin yarpaq tökümünə şahidlik etmək də var imiş... Addımlarının kinostudiya dəhlizləri boyunca gələn əks-sədası bu boşluğu daha aydın hiss etdirirdi. İllərlə çiyin-çiyinə çalışdığı yaxın dostları, həmkarları, yol-yoldaşları Şamil Mahmudbəyov, Muxtar Dadaşov, Rüfət Şabanov - onların heç biri artıq həyatda yox idi. Sanki əllərini hər şeydən üzüb ekranda daha bir tutarlı söz demək haqqını ona buraxıb getmişdilər...

### *Həyatı boyu*

***cəsarətlər qalereyası yaratmış vətənpərvər ustad isə sovetin qılıncının qabağı da, arxası da kəsərli olan bir vaxtda ekrandan Moskva əleyhinə nələr deməmişdi?! Məgər karikaturası çəkilmiş fərsizə ərə getmək istəyən axmağın ancaq Moskvada tapılacağını, ideoloji təbliğatın simvoluna çevrilən xəyanətkar Pavlik Morozovlara qətiyyətlə atılan gülləni, kişilik rəmzi kimi verilən bəyin qəhqəhə çəkib komsomol üzərində mənəvi qələbə çalmasını, dünyagörmüş Əziz kişinin tarixi baydaça timsalında - "baba" obrazı ilə bu xalqa illərlə sırınan Lenindən daha yaşlı və müdrik olmasını, dirilən ölülərin nümunəsində rus əsarətini qəbul etməyən xalqın "Azadlıq!" hayqırtısını zaman-zaman məhz onun filmlərində izləməmişdikmi?!***

O, ömrünün son günlərinə kimi peşəsinə xəyanət etmədi. Başqalarını da hər zaman bu sənətə hörmət etməyə çağırdı. Təsadüfi mənbələrdən maddiyyat tapaaraq qeyri-peşəkar işlərə imza atan, böyük kino adına ləkə gətirən sənətdən xəbərsizləri sərt tənqid etdiyi məqamlarda həmişə öz həqiqəti ilə baş-başa dayanırdı: illər boyu tanınmış həmkarları ilə bərabər min bir əziyyətlə qurub-yaratdıqları, binasını ucaltdıqları milli kinomuzun o səviyyəyə endirilməsi nə qədər ağır idi ona...

Heç nəyə baxmayaraq, canından əl çəkmək bilməyən azar-bezarla əlləşmək - yaratmaq istədiyi əsərlərlə, tükənməz yaradıcılıq axtarışları ilə müqayisədə onun üçün çox xırda məsələyə çevrilmişdi. Qarşıda böyük Cəfər Cabbarlının yubileyi gəlirdi. Vaxtilə ədibin özünün çəkməli olduğu əsər gözlərinin işığı gedənə qədər əlindən düşmürdü. Ssenari üzərində daimi iş aparır, təyin etdiyi ikinci rejissora artıq çəkilişlərə hazır olmağı tapşırırdı. Bu - xəstəliyin belə məğlub edə bilmədiyi iradənin, bütün varlığına hakim kəsilən sabaha inamın və şəxsiyyət bütövlüyünün ən bariz göstəricisi idi.

Tənha ustadı həmin ərəfədə fikirlərindən yalnız gənc jurnalist qızın telefon zəngi ayırmışdı. İşinin çox, vaxtınınsa məhdud olduğu bir məqamda mətbuata deyəcəkləri də az deyildi. Ona görə gənc jurnalisti danışmaq üçün son imkan bilib dəvətini qəbul etdi. Həmişə ətrafına sadəlik və səmimiyyət saçan sənətkar bu dəfə də içəri - redaksiyaya daxil olan kimi gəncləri başına topladı.

### *Milli ekran sənətinin*

***canlı əfsanəsinin, sonuncu mogikanının gəlişi bütün şöbədə bayram əhval-ruhiyyəsi yaratdı. Təkcə yazı müəllifinin deyil, az qala bütün kollektivin suallarını cavablandırdı. Müsahibənin müəllifi isə bu böyük insanın heç vaxt danışmadığı, yalnız ona etibar etdiyi bəzi xatirələrin mətbuatda ilk sədasına çevrildi. Heç o cavan jurnalist qızın ağlının ucundan da keçməzdi ki, həmin yazı işıq üzü görəndə, bu nəhəng şəxsiyyəti haqq dünyasından sayılı günlər ayırırdı...***

Bəli, ustad sənətkar ekranda bu günün sözünü demək haqqını ona buraxıb getmiş əziz dostlarının daxili düşüncələrini həyata keçirib onların yanına köçdü. Ancaq qəhrəmanı kimi yaşamaqdan bezib qoz ağacının altında oturaraq əcəlini gözləmədi. Əksinə, son gününədək qamətini dik tutdu, ürəyindəki gənclik alovunu sönməyə qoymadı. Ölümsə onun bu həyat sevgisini, yaşayıb-yaratmaq eşqini yalnız azacıq üstələdi. Gedişilə böyük bir epoxa qapandı, dövr başa çatdı. Azərbaycan kinosunun ağır günləri başlandı...

**Təəssüflər olsun ki, çərxi-fələk dünyanın hansı bucağında yaşayıb-yaratmasından asılı olmayaraq, eyni sənətə nüfuz və yaşamaq haqqı gətirən eynəkli qoca Akira Kurosava ilə, tənha ustad Tofiq Tağızadəni özüylə aparacaq qədər amansızdır!**

**Babək Abbaszadə**

**Ermənistan-Azərbaycan, ərazilərin işğaldan azad olunması haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**

№ 13 (2194) 4 fevral 2021-ci il

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

# STALİN REJİSSORU NİYƏ ŞİLLƏLƏDİ?

**Deməli, belə. Fazil Mustafanın çox maraqlı bir yazısını oxudum - ”Urvatsızlaşdırılmış qələbə”. Birincisi, onu deyim ki, gərək Fazil bəy belə yazaydı: ”Urvatsız edilmiş qələbə”. Keçmişdə belə bir söz vardı: ”Siz bizim elektrikləşdirdiklərimizdənsinizmi?” İndi Fazil bəyin də dediyi təxminən ona oxşadı. Yəni adamı yorur.**

Məsələ bunda deyil, çox maraqlı və ciddi bir yazıdı. Bizim saytımız və qəzetimiz bunu çap elədi.

Mən də təxminən bu məsələyə başqa bir yöndən baxmaq istəyirdim və indi deyim nədi məsələ?

Deməli, erməni saytları, qəzetləri, nə bilim nə zibilləri məğlubiyyətin hamısını Paşinyanın üstünə atırlar. Və biz də Birinci Qarabağ savaşında ”qalib” olmuş Ermənistanın o zamankı liderlərinin, dəqiq desək, Sərkisyanın, Köçəryanın açıqlamalarını palaz-palaz çap edirik. Guya həmin vaxt Ermənistan ordusu bizə qalib gəlibmiş, amma indi Paşinyanın günahı ucbatından məğlub olublar.

1988-ci ildən başlayan hadisələrdən 1994-cü ilin atəşkəsinə qədər bu savaşın iştirakçısı kimi müəyyən məsələlərə aydınlıq gətirmək istəyirəm.

Həmin vaxt Qorbaçovun tapşırığı ilə odlu silahlar Ermənistan və Azərbaycandan yığışdırıldı, guya! Amma ermənilərin əllərinə ”Kalaşnikov” verdikləri halda, cəbhə bölgəsindəki azərbaycanlıların qanuni ov tüfənglərini də əllərindən tutub aldılar. Çünki Azərbaycan hökuməti Moskvanın tapşırığını qul kimi yerinə yetirirdi. Və buna görə də azərbaycanlılar ən müasir silahlarla silahlanmış ermənilərin önündə aciz qaldılar.

Amma ürək başqa şeydi, ruh başqa şeydi, torpaq sevgisi başqa şeydi.

Bircə misal çəkəcəm. O dövr ermənilər Ağdamın Şelli kəndini ələ keçirmək istəmişdilər. Kənddə də Şelli Eldar adlı bir batalyon komandiri vardı, Allaha şükür durur, camaatı başına yığıb əliyalın da olsa ermənilərlə vuruşurdu. Ermənilər Şelli kəndini işğal etmək istəyəndə kəndin camaatı arvadlı-uşaqlı, ağsaqqallı-ağbirçəkli (bunu ”Dolu” romanında da yazmışam, ”Dolu” filmində də var) yabayla-baltayla erməni silahlılarını qırmışdılar və vurub kənddən çıxarmışdılar.

Baxıram Köçəryan-Sərkisyan qrupu bütün günü Paşinyana söyürlər ki, guya məğlubiyyətin səbəbi odur. Bizim mətbuat da bunu tirajlayır və Paşinyan haqqında nə qədər lazımdı təhqiredici materiallar paylaşır. Təbii ki, o, buna layiqdir, amma bununla Azərbaycan Ordusunun müzəffər qələbəsinə kölgə saldıqlarını yaddan çıxarırlar.

Gələk faktlara. Əvvəla, ilk Qarabağ savaşında biz nə qədər ki, erməni ordusuyla vuruşurduq, ağızlarını cırıb qoymuşduq qulaqlarının dibinə. Erməni mütəşəkkil ordusu, ən müasir silahlarla silahlanmış ordusu, bizim ov tüfəngləri ilə, uzağı on-on beş avtomatla silahlanmış könüllülərin və bir də az-çox nizam-intizamı olan milis işçilərimizin qarşısında davam gətirə bilmirdilər.

Uzaq tarix deyil ha. Heç bir təlim görməmiş könüllülər, bir də Məhəmməd Əsədovun, eləcə də Milli Təhlükəsizlik Nazirliyinin ( o vaxt KQB deyirdilər ) döyüşçülərinin qarşısında aciz qalmışdılar.

Sayımmı? Sayım. Çaykənd, Kamo, Azadkənd, Qaladərəsi, Şınıx, Ağcakənd (Şaumyankənd), Naxçıvanik, Xoramurd, Vəng, Madagiz, Drambon, Yeddi xırman və sair və ilaxır məhz könüllülərin və polis işçilərinin hesabına azad olunmuşdu. Ağdərə kimi rayon ermənilərdən azad edilmişdi. Mən hələ Vəngi-filanı demirəm. Yeddi xırmanla Xankəndinin arası təxminən bir güllə məsafəsindəydi. Yəni olmayan Azərbaycan Ordusu Xankəndini azad etmək iqtidarında idi.

Laçının işğal olunmuş kəndləri azad edilmişdi. Artıq Gorus-Xankəndi yolu bizim nəzarətimiz altına düşmüşdü. Xoramurd və Naxçıvanik azad edildikdən sonra Əsgəran mühasirədəydi və ermənilər qaçıb çıxıb getmişdilər.



Cəbrayılda polis rəisi işləyən Qara Rəşid (Rəşid Məmmədov) təkcə milisin gücüylə Hadrutun 13 kəndini erməni saqqallılarından və ermənilərdən təmizləmişdi. Yenə deyirəm, təkcə milisin gücü hesabına. Həmin vaxt Cəbrayılda nə qədər milis olardı? Təxminən 100-150 nəfər. Bu gün Azərbaycanda Milli Qəhrəman adına layiq olanlardan biri də Qara Rəşiddi, hərçənd ki o adı almayıb. Yəni həmin vaxt biz niyə irəli gedirdik və sonra niyə uduzduq? Ona görə ki, həmin vaxt biz ermənilərlə vuruşurduq. Və təbii ki, ermənilər necə indi olduğu kimi, onda da bizim qarşımızda duruş gətirə bilmirdilər və bilmədilər.

Və sonra Rusiya işə qarışdı, keçdi ermənilərin tərəfinə, təkcə onları silah-sursatla təmin eləmədi, həm də öz əsgər və zabitləriylə təmin elədi. Bunu bilməyən varsa, Allah mənə lənət eləsin.

Və yenicə müstəqilliyinə qovuşmuş əliyalın bir dövlət SSRİ-nin silahlı qüvvələri ilə vuruşmaq iqtidarında deyildi. Necə ki 1920-ci ildə 11-ci və 9-cu diviziyalar Azərbaycana hücum edəndə önündə dura bilməmişdi.

İndi Köçəryan-Sərkisyan cütlüyü savaşı uduzmağı Paşinyanda görür. Və bizlər də onların dediklərini tirajlayırıq və Paşinyanı təlxək kimi təqdim edirik.

Amma bir şeyi unuduruq. Cənab Prezident İlham Əliyev çıxışlarında və müsahibələrində heç vaxt demir ki, Paşinyana qalib gəlib. Deyir ki, **BİZ SƏRKİSYAN VƏ KÖÇƏRYANIN ORDUSUNA QALİB GƏLDİK!**

Yəni müasir Ermənistan ordusunu yaradanlar bu şəxslərdi, kakoy-nibud Paşinyan iki ildi gəlib və guya bu orduya rəhbərlik edir.

Və Ermənistanın keçmiş müdafiə nazirləri də, indiki müdafiə nazirləri də, nə bilim hansı kərtənkələlər də bütün günahı Paşinyanın üstünə atır.

Biz də bunu tirajlayırıq ki, biz çox zəif və guya texnikası zəif Ermənistana qalib gəlmişik. Və erməni dəyirmanına qiyməti qaldırılmış su tökürük.

Biz doğrudanmı zəif, silahsız-sursatsız, texnikası yararsız Ermənistana qalib gəlmişik?

Bir az ağıllı olun. Guya Ermənistan ordusu vuruşmayıb, guya hərbi texnikası yoxuydu? Necə yoxuydu ki, cəbhə xəttindən 100-150 kilometr aralıda Gəncə şəhərini raket atəşinə tuturdu, Bərdəni raket atəşinə tuturdu. Hətta Bakıdan 60-70 kilometr aralıda Xızını atəşə tuturdu. Mingəçeviri, Yevlaxı atəşə tuturdu.

Bəli, bizdə ”Bayraqdar” böyük rol oynadı, dronlar böyük rol oynadı. Amma zəfəri onlar qazanmadı, zəfəri Azərbaycan Ordusu qazandı.

”Bayraqdar” onların texnikasını sıradan çıxarırdısa, ermənilərin minamyotları da bir o qədər fəal idi.

Əgər biz zəif Ermənistan ordusuna qalib gəlmişiksə, bəs 3 minə yaxın şəhidi qətlə yetirən, 4 mindən çox əsgərimizi yaralayan, qazi edən kimin ordusu idi - Amerikanın, Fransanın, yoxsa Rusiyanın?

Vuruşublar! Amma bizə gücləri çatmayıb, iki səbəbə görə, daha doğrusu, üç səbəbə görə.

Birincisi, ayaqlarının altındakı torpaq onların deyildi. İkincisi, öz torpaqları uğrunda vuruşanlar son damla qanlarına qədər vuruşdu. Şəhid oldular, yaralandılar, amma geri çəkilmədilər. Şəhid olmuş dostlarını çiyinlərində daşıya-daşıya vuruşdular. Yaralı dostlarını çiyinlərində daşıya-daşıya vuruşdular. Çünki analarının, bacılarının, babalarının, əzizlərinin yatdığı torpaqlar uğrunda vuruşurdular.

Əgər ermənilər həmin torpaqları, həmin əraziləri özlərinki saysaydılar, şəhər və kəndlərimizi darmadağın etməzdilər.

Və üçüncüsü, Rusiya Ermənistana ən müasir silah və sursat versə də, 1990-cı ildəki kimi tərəf tutmadı. Və Rusiyanın prezidenti Putin bildirdi ki, Qarabağ Azərbaycanındır və Azərbaycan öz torpaqlarını işğaldan azad etmək üçün vuruşur.

Və əsas amillərdən biri də budur.

Dostlar, biz bütün dünyanın dəstəklədiyi, ən müasir silahlara sahib olan Ermənistan ordusuna cəmi 44 gündə qalib gəlmişik. Qələbəmizi kiçiltməyin!

Və sonda. Böyük Vətən Müharibəsi bitib və almanların uduzmağı ilə bağlı film çəkiblər. Təbii ki, bütün filmlərə ilk olaraq Stalin baxardı.

Filmdə Hitleri təlxək, düşük, mənasız bir şəxs kimi göstərirlər. Necə ki biz indi Paşinyanı və Ermənistan generallarını belə təqdim edirik.

Film bitir. Stalin qalxır ayağa və rejissora babat bir şillə vurur. Və hamı çaşıb-qalır. Stalin deyir:

**- Sən nə demək istəyirsən? Deməli, mən belə bir təlxəyə qalib gəlmişəm?**

**İndi, dostlar, Azərbaycan Prezidenti Paşinyan kimi bir düşüyə qalib gəlməyib, özünün dediyi kimi, Sərkisyan və Köçəryanın yaratdığı bir orduya qalib gəlib.**

**Ona görə bir az diqqətli olun, qələbəmizi kiçiltməyin!**

**Aqil ABBAS**

AZƏRBAYCAN RESPUBLİKASININ MEDİANIN İNKİŞAFI AGENTLİYİNİN MALİYYƏ YARDIMI İLƏ

# Müasir Azərbaycan Poeziyasında Ali Baş Komandan obrazı



*Mərziyyə Nəcəfova*
*Filologoya elmləri doktoru*

**Ali Baş Komandan 30 illik nisgilə son qoydu. Bu illər ərzində azad olmayan torpaqları 44 günlük savaşla özümüzə qaytardı. Son zamanlar inanılmaz olan qələbəni türk dünyasına yaşatdı. İlham Heydər oğlu Əliyev tariximizi yazanlardan deyil, tariximizi yenidən yaradan Ali Baş Komandanımız oldu. Onun "Qarabağ Azərbaycandır!" "Dəmir yumruq" ifadəsi günümüzün poeziyasının mövzu qaynağına çevrildi. Qələbədən qələbəyə üzündən-gözündən süzülən sevinc və nur poeziyamızın misralarına hopdu. Azərbaycan poeziyası zəfər sevincini ilk öncə Ali Baş Komandanın düyünlənmiş yumruğunu yüksəklərə qaldıraraq söylədiyi o sehirli kəlmədə yaşadı: "Qarabağ Azərbaycandır!"**

Beləliklə, günümüzün poeziyası Ali Baş Komandan obrazı ilə ədəbiyyat tariximizi yenidən yaratdı. İlham Əliyev ismi zəfər sevincləri ilə poeziyamızın sütununa çevrildi. Ali Baş Komandan obrazı Zəfər, Vətən obrazı ilə birləşərək Vətən oldu. Ali Baş Komandanın zəfərdən verdiyi xəbər elə o gecə zəfər şeirlərinə çevrildi.

***Bu bizim haqq işimiz, ədalət savaşımız,***
***İntiqam ala-ala dikələcək başımız,***
***Vur, əsgərim, vur!- deyə əmr eləyir komandan***
***Qoy bir də yurdumuzda tökülməsin nahaq qan.***
***Qayıtsın Qarabağa yenə xoşbəxt çağımız,***
***Başımızın üstündə üç rəngli bayrağımız!...***
***Qovur öz yuvasına quduzlaşan itləri!***
***Ali Baş Komandanın qələbə tvitləri.!***

***(Sabir Rüstəmxanlı,Qələbə tvitləri)***

Sabir Rüstəmxanlı, Zahid Xəlil, Rafiq Yusifoğlu, Vahid Əziz, Əjdər Ol, Əhməd Qəşəmoğlu, Abuzər Turan, Ramiz Duyğun, Xanım İsmayılqızı, Mahirə Abdulla, Nizami Muradoğlu, Vaqif Aslan, Elnur Uğur, İbrahim Yusifoğlu, Hüseyn Bağıroğlu, Şövkət Horovlu və onlarca digər şairin yaradıcılığında Ali Baş Komandan obrazı poeziya səhifələrimizi bəzəyir.

Sabir Rüstəmxanlı "Qələbə tvitləri" şeirindən sonra "Qarabağa dönüş" poemasında da Ali Baş Komandan"ın irəli əmri ilə bəzi məqamları aydınlatdı. Poemanı meydan hərəkəti ilə açan müəllif keçmişimizi, yaşantılarımızı, faciələrimizi yada saldı. Dünyanın sehirci qaldığı Qarabağ hadisələri, torpaqlarımızın erməni işğalçıları, havadarları tərəfindən qəsb edilməsinin ağrısı misralara sığışmadı. Qaranlıqlara qərq olan Azərbaycan xalqının birdən-birə ömrünə doğan işıq - Ali Baş Komandanın əmri - zəfərə gedən yolu aydınlatdı.

***Ancaq birdən göylərdən bir şimşək çaxıb getdi.***
***Həqiqət min yalanı yandırıb yaxıb keçdi.***
***Savaş deyən sərkərdə milləti oyandırdı,***
***Hər ürəkdə ümiddən çılçıraqlar yandırdı,***
***Yol gözləyən yurdların harayı hər gün təzə,***
***On milyonun tək səsi yol açdı üzümüzə.***
***Qalxdı igid oğullar, oğul düşmən çəpəri,***
***Qalxdı əmrə müntəzir Azərbaycan əsgəri!***
***Nəfəsi yaz nəfəsi, səsi ildırım səsi,***
***Yurdun coşan İlhamı, qisas almaq həvəsi.***

Daha sonrakı bəndlərdə Ali Baş Komandanın hər rayonun azad olunmasını televiziya vasitəsi ilə xəbər verməsi sevincinin əvəzedilməz olduğu yalnız şair dilindən deyil, Azərbaycan xalqı adından ifadə edilir, Ali Baş Komandanın televiziyadan zəfər xəbərini verdiyi dəqiqələrin əvəzsiz bir xoş yaşantı olduğunu xatırladır. Gözlərimiz qarşısında İlham Əliyevin özünəməxsus şəkildə yumruqlarının qalxma anlarını canlandırır. Sabir Rüstəmxanlı o xoş xəbərin çatdırılmasını bu ifadə ilə izhar edir:

***Şükür, yıxıb dağıdır bu çürüyən bütləri,***
***Qanımdan qanad taxan qələbə tvitləri".***

Müəllif yaşadığımız siyasətə "Tanrının da əsir" düşməsini ifadə etməklə 30 illik bu oyunun, torpaqlarımızın erməni əlinin deyil, onun hiyləgər himayədarlarının əlinin olduğunu və səsimizin 30 il içimizdə boğuldluğuna işarə edir. Bir misrada isə Sabir Rüstəmxanlı Ali Baş Komananın əmrini poetikləşdirərək, qanada bənzədir. Aşağıdakı bənddə 27 sentyabr, 2020-ci ildən xalqımızı - Azərbaycan ordusunu qanadlandırıb, uçmaq üçün uçurumdan qaldırana buraxan bir sərkərdə obrazı dayanır və bu sərkərdənin əmri, elə zəfər deməkdir. Bu əmrin gücü ilə Azərbaycan ordusu silahsız belə düşmənə sinə gərib, zəfər çala bilmək durumundadır. Necə ki, döyüşçülərimiz çox hallarda düşməni silahla yox, qol gücü ilə məğlub etmişlər.

***Əsgərin silahı yox, əmrin özü silahdır,***
***Bu əmr özü qanaddır, qaldırır uçurumdan.***
***Düşmən gözünü açıb görür bir körpə ruhu***
***30 yaşa dolaraq gəlibdir Xocalıdan.***

***(Sabir Rüstəmxanlı, "Qarabağa dönüş")***

Ali Baş Komandanın alınan torpaqlara getməsi, torpaqlarımızın azad olması xəbərini Azərbaycan xalqına çatdırması xalqda və döyüşçülərimizdə çox böyük ruh yüksəkliyi yaradırdı. Rafiq Yusifoğlunun "Ali Baş Komandanın Qubadlıya səfəri" şeiri dastanlarımızdakı qəhrəmanlarımızı bizə yenidən xatırladır. Bu gün Qarabağ torpaqlarını yağı düşmənlərdən azad edib, böyük qürurla döyüşçülərimizi dəstəkləyən, onlara arxa-dayaq olan Prezidentimiz qəhrəmanlıq dastanımızı yazır. "Dəmir yumruq"ların işə düşməsinə verdiyi əmr döyüşçülərimizə güc, qüvvət olur.

Rafiq Yuisfoğlu "Ali Baş Komandanın Qubadlıya səfəri" şeiri ilə Ali Baş Komandana olan xalq sevgisini və birliyimizi ifadə edir:

***Bitdimi bu qara-qorxulu nağıl?***
***Ürək xiffət çəkir ötən çağ üçün.***
***Torpağı ölümdən qurtaran oğul***
***Gedir xəstə yurdu yoluxmaq üçün...***

Bu bənddə şair "xəstə yurd" ifadəsi ilə çox məqamlara işıq tutur. Bu sətirlərdə 30 ilə yaxın erməni tapdağında qalan torpaqları, yandırılan yurdları görmək olur, 30 illik həsrətin sona çatdığını xatırladılır. Artıq bu ayrılığa dözə bilməyən, bu həsrət ilə ölümə gedən insanların torpağında dəfn olmaq istəyi, kədər, ağrı hissi ilə misralara çevrilir. Bu zəfərin sevinci və İlham Əliyevin küskün torpaqların başına sığal çəkməsi xalqla dövlətimizin sarsılmaz birliyinin ifadəsidir.

Ali Baş Komandanın (efirlərdən belə) xalqına, torpağına, bu zəfərə olan sevgisi və sevinci bu şeirin misralarında öz əksini tapır:

***Yanır, şölələnir köksündə məşəl,***
***Can atır kəndləri qurub, tikməyə...***
***Düşmənin başında yumruq olan əl,***
***Gedir küskün yurda sığal çəkməyə...***

Bəlkə də bu sığalda bir az da torpaqlarımızdan üzr istəmək, bağışlana bilmək istəyi var və istək də, Azərbaycan xalqı adından Qarabağ torpaqlarını 44 gün ərzində erməni vandallarından qurtarmaq gücünə malik olan cənab İlham Əliyev tərəfindən edilməli idi. Ancaq o zaman 30 il erməni tapdağında qalan torpaqlarımız bu xalqı bağışlaya bilərdi. Ali Baş Komandanın gəlişinə torpaqlarımız da sevinir, bu sevincdə kövrək duyğular şirin vüsalla qovuşur.

***Nəğməkar Bərgüşad gəlibdir coşa,***
***Kükrəyən çayların ilhamı gəlib.***
***Sevinir ürəyi yaralı Şuşa,***
***Onun görüşünə İlhamı gəlib.***

***(Rafiq Yusifoğlu,***
***"Ali Baş Komandanın Qubadlıya səfəri")***

Əslində ilər öncə yazılan şeirlərdə də Ali Baş Komandana inam, güvən hissi güclü idi. Xalqımız Ali Baş Komandanına inanırdı. İbrahim Yusifoğlunun bir neçə il öncə yazdığı "Tanıtmalıyıq", "Şuşa" adlı şeirlərində Ali Baş Komandanın uğurlu siyasətinə inam böyük idi.

***Hələ ki, dardadır Vətən torpağı,***
***Düşmən tapdağında inildəyirlər.***
***Hələ qalib sayır özünü yağı***
***Sinəmiz üstündə dingildəyirlər***
***... Bilirik, bu xalqın Baş Komandanı,***
***Çəkilmiş sədləri tam yaracaqdır,***
***Vətən torpağının hər qarışını,***
***Bu xalqın özünə qaytaracaqdır.***

***(İbrahin Yusifoğlu, "Şuşa")***

Bu cür şeirləri yada saldıqca, bu günkü poeziyamızın təməlinin xalqımızın şüurunda hər zaman yaşadığının şahidi oluruq.

Zahid Xəlilin "Dəmir yumruq" başlıqlı şeirində isə Ali Baş Komandanın nəinki Azərbaycanda, dünyada nəyə qadir olduğu öz əksin tapır. Yer kürəsini titrədən, oyadan bu dəmir yumruq, dünyaya meydan oxudu. Haqq-ədaləti, mərdliyi, mübarizliyi bir dəmir yumruğun sayəsində dünyaya çatdıra bilməyimiz şeirin əsas ideyası kimi qiymətlidir.

***"Dəmir yumruq"- bu gözəl söz***
***El-obanın dilindədir.***
***Dəmir yumruq dəmir kimi***
***Bir kişinin əlindədir.***

Dəmir yumruq Qarabağda illərcə sönən işıqlarımızı yandırmağa gücü yetən bir cəsarət, bir güc simvoludur. Onun polad cəsarəti heç bir ədalətsizlikdən əyilə bilmir. Ona görə ki, bu yumruq poladdandır. Şair ötən günlərə dönür:

***O yandırdı Qarabağda***
***Elin sönmüş çırağını.***
***Yağmalanmış torpağıma***
***Taxdı zəfər bayrağını.***

Şair "haqqı nahaq etmişdilər"- deyə illərcə öz halal torpaqlarımızdan bizi didərgin salan, özlərinə saxta tarix yazıb, Qarabağ torpaqlarını "özəlləşdirən" hayları tənqid atəşinə tutur, Ali Baş Komandanın bu gün haqq səsini dünyaya çatdıra bilməsini alqışlayır. 30 il səbrlə, təmkinlə hadisələrin sülhlə sonlandırılmasını gözləyən və müharibə istəməyən Ali Baş Komandan nəhayət, "Qarabağ Azərbaycandır!" deyib, irəli əmrini verməklə, dünyaya haqqın nahaqa qalib gələcəyini sübut etməsi özü elə bir zəfərdi, qalibiyyətdir. Şeirin sonu Ali Baş Komandana minnətdarlıq və təşəkkür hissidir:

***Dəmir yumruq, ömrüm boyu***
***Sənə nəğmə deyəcəyəm!***
***O qüdrətli barmaqlara***
***Qızıl əlcək hörəcəyəm.***

***(Zahid Xəlil, "Dəmir Yumruq")***

Bu şeir bir xalqın dilindən Ali Baş Komandanına sevgi və etiramıdır. 30 illik torpaqlarından ayrı düşən bir xalq Ali Baş Komandanına olan minnət duyğusunu yalnız ona olan birlik və sədaqəti ilə ödəyə bilər. Bu tipli şeirlərdə xalqın yaşantılarını yazan şairlərimiz bu gün Prezidentimizə olan inam və sevgilərini ona olan sədaqət duyğusunda və birlikdə görürlər. Şair Ramiz Duyğunun "Böyük qələbəmizin Ali Baş Komandanı" şeiri xalqının dilindən deyilən bir minnətdarlıqdır:

***Azərbaycan ordusunun Ali Baş Komandanı***
***Qüdrətli əllərilə kəsdi, doğradı, qırdı,***
***Qat-qarışıq rəngləri bir-birindən ayırdı.***
***Hayqırdı təmkin ilə: budur həqiqət anı!***
***Basılmaz dövlətimin,***
***Minnətdar millətimin***
***Ali Baş Komandanı.***

***(Ramiz Duyğun "Böyük qələbəmizin***
***Ali Baş Komandanı")***

**ardı var...**

## *İstedadlı gənclər mükafatlandırıldı*



**2 fevral-gənclər günü münasibətiylə bir sıra istedadlı gəncimiz müxtəlif dövlət qurumları və prezident tərəfindən mükafatlandırıldı. Onlardan ”Prezident mükafatı”na layiq görülən Ramil Əhməd, ”İlin gənci” adını alan Elvin Əlizadə təəssüratlarını ”Ədalət” qəzeti ilə bölüşüb.**

**Ramil Əhməd:** ”Gənclər üçün Prezident Mükafatı” cənab prezident İlham Əliyevin Azərbaycan gəncliyinə diqqətin, inamının çox gözəl bir nümunəsidir. Bu ali mükafatı almaq, gördüyün işlərə şəxsən cənab Prezidentin qiymət verməsi, dəyərləndirməsi qürur vericidir. Bu etimadı doğrultmağa çalışacağam. Gələcək işlər üçün çox böyük stimul oldu. Cənab prezidentə minnətdaram. Mükafata layiq görülən bütün gəncləri təbrik edirəm.”

**Elvin Əlizadə:** ”Mənim fikrimcə insan öz fəaliyyətini hər hansı mükafatı qazanmaq üzərində qurarsa, buna nail ola bilmir. Ancaq insanın zəhmətinin yaxud istedadının qiymətləndirilməsi xüsusən, dövlət tərəfindən qiymətləndirilməsi qürurverici olmaqla yanaşı, insana stimul bəxş edir. Bir çox mükafatlar qazanmışam. Ancaq ölkənin seçmə gənclərinin mükafatlandırıldığı bir tədbirdə həmin siyahıda olmaq sadəcə möhtəşəmdir. Kiçik işimizi böyük qiymətləndirənlərə öz təşəkkürümü bildirirəm. Təqdimat üçün Azərbaycan Yazıçılar Birliyinin gənclərlə iş üzrə katibi Rəşad Məcidə minnətdaram.”

**Emin Piri**

## *Daha 2 şagird və 7 məktəb işçisi koronavirusa yoluxdu*



***Təhsil Nazirliyi orta məktəblərdə koronavirusa yoluxma halları ilə bağlı son vəziyyəti açıqlayıb. Nazirlikdən bildirilib ki, 10 şagirin hərarəti 37 dərəcədən yuxarı olub. İbtidai siniflərdə oxuyan 2 şagird koronavirusa yoluxub. Virusa yoluxmuş işçi heyətinin sayı 7 nəfərdir. Məktəbəqədər hazırlıq qruplarında təhsil alanlar arasında virusa yoluxan qeydə alınmayıb. Qeyd edək ki, əyani dərslərdə iştirak edən şagirdlərin sayı 285 564 nəfər olub.***

***MEHRİBAN***

Qəmər Alxanova



# İSTANBULA SU ÇƏKƏN, ANCAQ SUSUZ VƏFAT EDƏN MEMAR

**İstanbulda ciddi su qıtlığı yaşanırdı. Bu problemin çarəsi Sultan Süleyman Qanuninin dövründə Memar Sinanın ustalığı sayəsində öz həllini tapmışdır. Belə ki, İstanbulun əhalisi çoxalıb su ehtiyacı artınca Sultan Süleyman Qanuni Memar Sinanı hüzuruna çağırır və "memarbaşı, xalqımız suya ehtiyac duyur. Bir at yükü suya çox miqdar axca ödəyir. Əcəba, xalqımızın su ehtiyacını aradan qaldırmaq üçün nə isə edə bilərsinizmi?" Memarbaşı deyir ki: "Sultanım, siz icazə verin, mən İstanbulun ətrafını gəzim. Kənardakı suları İstanbula gətirməyin mümkün olub-olmadığını araşdırım və ondan sonra sizə cavab verərəm". Sinan ağa atına minir, özü ilə yardımçılar da götürərək Çəkməcədən başlayaraq sahilboyu gəzir. Beşikdaşa qədər İstanbulun sahillərində dərələri, axan suları təsbit edir. "Bu suların qarşısı hörülərək bənd tikildiyi təqdirdə hara qədər yüksələr, hardan haraya kəmər çəkilərək İstanbula gətirilə bilər" - deyə hesablamalar aparır və sultanın hüzuruna çıxır.**

Sultan soruşur: "Memarbaşı, İstanbula su gətirmək mümkündürmü?" Memarbaşı: "Bəlkə də, sultanım, mümkündür". Lakin Sinan çox ağır şərt qoyur: "Sultanım, ancaq altın dolu kisələri uc-uca düzmək şərtiylə İstanbula su gələ bilər". Sultan Süleyman Qanuni isə cavabında: "Memarbaşı, sən İstanbula su gətirmənin mümkün olub-olmadığını söylə. Əgər mümkünsə, mən kisələri uc-uca deyil, yan-yana düzməyə razıyam" - deyir. Bundan sonra Memar Sinan qollarını çirməyir və İstanbulun kənarındakı suları Kağızxananın ətrafında müəyyən yerlərdə toplayır, oradan da dərənin içində böyük keçidlər tikərək İstanbula gətirir və müəyyən meydanlarda tikdiyi ümumi çeşmələrlə suyu şəhərə axıdır. Qırx belə çeşmə tikir və Qırx Çeşmə suları axmağa başlayır. O zamanlar kran olmadığı üçün sular axıb gedirdi. O gün çox baha başa gələn suyu artıq bostanlara, yollara axıtmaq məqsədəuyğun hesab edilmir və ilk dəfə İstanbulda "lülə" deyilən kran çeşmələrə qoyulur. Su belə baha başa gəldiyi və qiymətli olduğu üçün Sultan Süleyman Qanuni fərman verir: "İstanbul meydanlarındakı ümumi çeşmələr xalqın malıdır. Heç kim bu çeşmələrdən gizlincə yerin altıyla evinə su apara bilməz".

Sultan Süleyman Qanuni bu ümumi qaydanın bir istisnasını yalnız Memar Sinana aid edir. O deyir ki: "İstanbula belə gözəl iş nümayiş etdirərək Qırx Çeşmə sularını gətirdin. Sən evinə şəxsən bir boru su apara bilərsən" və bundan sonra Süleymaniyənin ətrafındakı meydan çeşməsindən Sinanın evinə xüsusi yol çəkilərək su aparılır. Beləliklə, Memar Sinan evində şəxsi su arxı olan yeganə adam idi. Memar Sinan bir-birinin ardınca Şahzadəbaşı məscidini, Süleymaniyyə məscidini və Ədirnədəki Səlimiyyə məscidini tikdikdən sonra artıq qocalmışdı. Dövr dəyişmiş, etibarının zirvədə olduğu dövrdə onun qədrini bilənlər bu dünyadan köçmüşdü. Sultan Süleyman Qanuni vəfat etmiş, yerinə başqa padşahlar gəlmişdi. Memar Sinan 99 yaşında idi və ətrafındakı dostları dünyasını dəyişdiyi üçün də İstanbulda sanki yalnız qalmışdı. Bir gün Sinanın qapısına bir nəfər gəlir. Sinan çəliyinə söykənərək qapını açır, "buyurun" - deyir. Gələn məchul adam "mən Topqapı sarayının qasidiyəm. Sizi Divana çağırırlar. Hər halda sorğu-sual olunacaqsınız" - deyir. Sinan ağa bu qoca vaxtında dostlarının hamısının köçüb getdiyi, onu əsərlərinin inşaatı zamanında görənlərin qalmadığı bu dövrdə "əcəba, Topqapı sarayına niyə çağrılıram?" - deyə çəliyinə söykənə-söykənə gedir. Saraya daxil olanda, orada sorğu-sual etmək üçün qazilərdən, üləmalardan, müftilərdən ibarət heyət qurulduğunu görür. Memar Sinana deyirlər: "Sinan ağa, səndən şikayət var. Evə su çəkmək qadağan olduğu, heç kim evinə su çəkməsin deyə padşahın fərmanı olduğu halda sənin evində şəxsi su arxı varmış". "Bəli" - deyir, "Cahan padşahı mənə şəxsi icazə vermişdi. İstanbula su çəkdiyimə görə yalnız mənə su çəkməyə icazə vermişdi və mən də çəkmişdim". "O zaman bu icazəni, fərmanı göstər ki, biz də səsimizi çıxarmayaq. Heç kimə icazə verilməməsinə baxmayaraq, sənin su arxın qalsın". Memar Sinan isə: "Mən o zaman Cahan padşahından fərman istəməkdən çəkinmişdim. Fərmanım-filan yoxdur, amma su mənim evimdə axır"- deyə cavab verir.

Divan müşgül vəziyyətdə qalır, uzun-uzadı müzakirələr başlayır: "Sinan böyük xidmətlər göstərmişdir, evində suyu axsın". Başqaları isə: "Bu Al-i Osmana xidmət göstərən sadəcə Sinandırmı? Sinan kimi neçə-neçə xidmət edənlər vardır. Ya onların da evinə şəxsi su arxı çəkilsin, ya da Sinana da ayrı-seçkilik göstərilməsin" - deyirlər. Divanda uzun mübahisələr olur və sonda belə qərar verilr: "Sinan kimi digər xidmət edənlərin də evinə su çəkilə bilməyəcəyinə görə, Sinana verilən su kəsilməli, fəqət indiyə qədər sudan fərmansız istifadə etdiyi üçün ona heç bir cəza verilməməlidir". Bu qərardan sonra Sinan evinə gəlir. Üzgün, bezgin, amma çox mütəəssir olmur. Çünki Sinan Allah üçün xidmət göstərmişdi. Ona ayrı-seçkilik və ya xüsusi bir mükafat verilməsi üçün deyil. Nəhayət, gün gəlir Sinan xəstələnir və yatağa düşür. Vəfat etdiyi zaman ətrafındakılardan bir nəfər parçanı suya batırıb dodağını islatmaq istəyərkən görür ki, evdəki krandan su axmır. Beləliklə, İstanbula su gətirən Sinan susuz bir evdə vəfat edir. Vəfat etdiyi zaman bu hadisəni başı üzərində danışanlara verdiyi cavab çox maraqlıdır: "Biz zəhmətimizi dünyada bir fincan suya satacaq qədər mənfəət düşkünü deyilik. Biz Allah rızası üçün tikdik və mükafatını da axirətdə gözləyirik. Bu dünyada evimizə su verilmədiyi üçün mütəəssir deyilik".

# Feyza Özcana nota yolladı: "Övladım üçün burdayam"

**Feyza Aktan 2019-cu ildə boşandığı məşhur aktyor Özcan Denizin övladı ilə bağlı ona qarşı açdığı məhkəmədə ifadə verdi. Məhkəmədən sonra media nümayəndələrinə açıqlama verən Aktan "Uşağımın mənimlə qalmasını istəyirəm. Ona görə də burdayam" deyib media vasitəsilə keçmiş həyat yoldaşı Özcan Denizə nota yolladı.**



Jurnalistlərin bir-bir suallarını cavablayan Feyza sakit qalıb məhkəmə işinin bitməsini gözlədiyini dilə gətirdi:

"Onsuz da danışacaq çox şey yoxdur. Məhkəmə prosesi hələ də davam edir. Bununla bağlı heç bir açıqlama verə bilmərəm. Məhkəmənin bitməsini gözləyirəm".

Özcan Denizin həbs olunmasını istəyən Aktan jurnalistin "Özcan bəy uşağı sizdən almaq istəyirmi?" sualına "bəli" cavabını verib hər şeyi vəkilinin ixtiyarına buraxdığını bildirdi: "Vəkilim məhkəmənin uşağımız üçün ən yaxşı qərar verəcəyinə inanır. Övladımın mənimlə qalması üçün burdayam". Feyza Aktan jurnalistlərin "Özcan Deniz sizə şiddət göstəribmi?" sualına isə cavab verməyib.

**Qeyd edək ki, bir neçə gün öncə Feyza Özcan Deniz barəsində şok iddialar səsləndirmiş, evli olduğu zaman Özcanın ona şiddət göstərdiyini bildirmişdi.**

**Rövşən Tahir**

## Sənubər İsgəndərli: "Ayılıb görəcəyik ki, nə teatr var, nə sənət"



***Əməkdar artist Sənubər İsgəndərli teatrların bir ilə yaxındır bağlı qalmasından şikayətlənib.***

***Axşam.az xəbər verir ki, aktrisa bu haqda sosial şəbəkədə yazıb. O bildirib ki, işsizlikdən təngə gəlib:***

***"Martda 1 il olacaq ki, ölkəmizdə bütün teatrlar bağlıdır. Pandemiyadır, karantindir deyib, oturduq. Amma heç bir ölkədə teatrların qapısı bu qədər bağlı qalmadı. Hər yerdə mümkün variantlardan istifadə olundu ki, teatr sənəti yaşasın. Biz isə hələ oturmuşuq. Bir də ayılıb görəcəyik ki, nə teatr, nə sənət var.***

***Şəxsən mənim səbrim artıq tükənib, ömrümüzdən gedir".***

## *"Özümü çatdıra bilmədim" - Vüsalə anasından yazdı*



**"Köksünə başımı sıxıb o qədər ağlayaram ki...Yoxluğuna alışa bilmirəm. Kədərli gözlərinin bir gün yalnız şəkildən mənə baxacağını heç ağlıma gətirmirdim. Bəlkə, mən sənə sağlığında layiq olduğunu verə bilmədim. Hər canın ağrıyanda dərmanın oldum, yalnız bir dəfə çatmadım, özümü çatdıra bilmədim sənə. Onda da tərk edib getdin məni".**

Adalet.az saytı xəbər verir ki, bu sözləri aparıcı Vüsalə Kərimova sosial media hesabında anası haqqında yazıb: "Bəlkə də, sənə çatmadım deyə küsdün məndən. Gözləmədin. Mənə o uzun yol yoldaşı olduğumuz gecələrdə söz vermişdin axı, ana? "Səni mən doğmuşdum, məni də sən doğdun" deyirdin mənə. Noldu bəs? İnsan "ana"sını yalnız qoyarmı? Mən sənin yenidən doğulmağın üçün nələrdən keçməzdim ki, anam. Məni çox sevirdin, sənin sevgidən doğulan payın idim. Niyə məni səndən məhrum etdin? Sənsiz necə yandığımı bilsən, gedərdinmi? Çox darıxmışam, ana".

Qeyd edək ki, Vüsalə Kərimovanın anası 24 dekabr tarixində uzun sürən xərçəng xəstəliyindən dünyasını dəyişib.

# Mahir bombardirlər yarışında Reynaldonu keçdi




**"Qarabağ"ın tarixinin ən yaxşı bombardirləri siyahısında dəyişiklik olub.**

Qol.az xəbər verir ki, Azərbaycan kubokunun 1/4 final mərhələsinin "Qəbələ" ilə ilk oyununda (3:1) dubla imza atan Mahir Emreli komandasının heyətində vurduğu qolların sayını 63-ə çatdırıb.

O, buna 2015-ci ilin yayından çıxış etdiyi "Qarabağ"da keçirdiyi 183 matçda nail olub. Hücumçunun orta məhsuldarlığı 0,34-ə bərabərdir. Forvard Premyer Liqada 51, ölkə kubokunda 7, avrokuboklarda 5 dəfə rəqib qapısına yol tapıb. Emreli "Qarabağ"dakı qol sayını 63-ə çatdırmaqla klub tarixinin 2-ci ən yaxşı bombardiri olub. O, "Qəbələ" ilə görüşdəki qollarla braziliyalı Reynaldo Silvanı arxada qoyub. Cənubi amerikalının hesabında 62 top var.

Qeyd edək ki, "Qarabağ"ın tarixinin ən yaxşı bombardiri Müşfiq Hüseynovdur. Onun aktivində 159 qol var.

## *Aysel İbrahimova: "Ailəli ola-ola min hoqqadan çıxmamışam"*



**Klarnet ifaçısı Hüseyn Məhəmmədoğlu aktrisa Aysel İbrahimova uzun müddətdir, birlikdədir.**

Adalet.az xəbər verir ki, cütlük artıq evlənib. Bu barədə aktrisanın özü "instagram" hesabında məlumat verib:

"Biz artıq evliyik. 2021-ci ildə evləndik. Heç kimin xoşbəxt ailəsini dağıtmamışam. Dağılmış ailəni necə dağıda bilərəm? Bu mənim nə insanlığıma, nə də xanımlığıma yaraşan bir işdir. Mövzu haqqında heç bir fikrə sahib olmadan tənqid etdiyiniz zaman övladlarınızın gələcəyini, qohum və tanışlarınızda boşanmış xanımları düşünün. Kimin ailəsinin nəyə görə dağıldığını bilmədən ağzınıza gələn rəyləri yazırsınız. Heç kim boşuna, kefindən ailəsini dağıtmır. Pis bir iş görməmişəm, ailə qurmuşam. Boşananı bir cür qınayırsınız, evləneni də bir cür. Ailə qurmuşam, nə günah iş görmüşəm ki? Bəziləri kimi ailəli ola-ola min hoqqadan çıxmamışam ki... Cəmiyyətdə xəyanət edən qadınları, uşaqlarınıza pis örnək olan insanları qınamalısınız, ailə quranları yox. Evlilik təklifi almışam, boşanma səbəbini bilmişəm, daha sonra tanıyıb razılıq vermişəm. Elçilik olub, qohumları gəliblər, valideynlərimdən istəyiblər, daha sonra nişan və nikah baş tutub".

**Qeyd edək ki, bu evlilik Hüseyn və Ayselin ikinci nikahıdır.**

**Rövşən Tahir**

# "Musiqi savadları yoxdur, insanların zövqlərini korlayırlar"

***"İnsan özünə qiymət verməli, özünü sevməlidir. O sevgi məndə özümə qarşı azdır. Çatışmazlıqlarım çoxdur. Məni tanıyan insanlardan soruşsanız, onlar daha yaxşı cavab verərlər". "Ədalət" qəzetinin qonağı müğənni Nəsimi Məmmədovdur.***

**-Suallara keçməzdən öncə istərdim ki, özünüzü təqdim edəsiniz...**

-2004-cü ildə Azərbaycan İncəsənət və Mədəniyyət Universitetinə daxil olmuşam. 2005-ci ildə "Azəri Star" müsabiqəsinin iştirakçısı olmuşam. İnanıram ki, həmin verilişi xatırlayan izləyicilər var. O dövrün populyar proqramlarından idi. Musiqiçi ailəsində dünyaya göz açmışam. İlk müəllimim atam Ənnağı olub. Gözümü açandan ona qulaq asıb, onu dinləyib, ondan bəhrələnmişəm. Daha sonra müsabiqədə iştirak etdiyim dönəmdə dəyərli ifaçılarımız bizə dəstək idilər. Allah rəhmət eləsin, İlhamə Quliyeva, Faiq Sücəddinov, Nadir Axundov və Zülfiyyə Xanbabayeva, Sevda Ələkbərzadə münsif heyəti idi həmin yarışmada. Müəllimimiz isə Teymur Əmrah idi. Onlardan həddən artıq bəhrələnmişəm.

**-Demək ki, bu sənətə uşaqlıqdan meyil etmisiniz...**

-Təbii ki. Bir az öncə dedim ki, atamdan bəhrələnmişəm. Həqiqətən, atamın sənətinə sevgim olubdur. Atam evdə məşqlər edəndə həmişə ona qulaq asırdım. 6 yaşım olanda Şövkət Ələkbərova adına Musiqi Məktəbinə getdim. Müəllimim Züfüqarova Rəna xanım idi. 5 il orada təhsil aldım. İndi xatırlayıram o illəri, məktəb vaxtı dərsliklərimin arasından mahnı sözləri çıxırdı. Musiqiyə o qədər sevgim var idi ki, mahnıları əzbərləyib oxuyurdum. Nə yaxşı ki, bu sənətdəyəm.

### *"Musiqi ilə yaşayan insanam"*

**-Musiqi dünyanızda nələr yer alır?**

-Səhər yuxudan dururam musiqi, günorta musiqi, axşam musiqi. Musiqi ilə yaşayan insanam. İnanmıram ki, elə bir sənətini sevən musiqiçi olsun ki, musiqi ilə yaşamasın. Mən, həqiqətən, musiqi ilə yaşayıram. Tək məndə yox, məncə, bu hər kəsdə belədir. Sizə deyim ki, insanların davranışını belə musiqi zövqü ilə təyin etmək olar. Musiqi böyük qüvvədir.

**-Lirik, yoxsa ritmik ifalar?**

-2005-ci ildə müsabiqə iştirakçısı olanda həzin mahnılar oxuyurdum və insanlar da o mahnılarla məni sevirdilər. İndinin özündə belə "Siz "Azəri star"da olmusunuz" kimi fikirlər eşidirəm. Hazırda repertuarımda ritmik mahnılar da var. Bildiyiniz kimi, ölkəmizdə müğənnilər toy bazarından qazanırlar. Düzdür, indi pandemiyadır, toy yoxdur, amma toy olan vaxtlarda oynaq mahnı oxumalısan ki, toylara da gedəsən. Odur ki, mən də ritmik mahnılar ifa edirdim.




**-Dediniz ki, musiqi ilə yaşayıram. Bəs yaşamınıza mane olan amillər varmı?**

-Qarşımı kəsən hansısa bir sədd yoxdur. Mənə elə gəlir ki, hər şey qaydasındadır. Çox şükür. Müəyyən problemlər ola bilər, onlar da hər kəsdə var. Elə bir insan yoxdur ki, onda problem olmasın.

**-İnsanlara etibarınız var?**

-Var. İnsanlara etibar etməlisən. Mənə görə, etibarsızlıq pis şeydir. Tam etibarsızlıq olanda, mənə elə gəlir, həyatdan zövq ala bilmərsən. İnsan etibar etməlidir, amma müəyyən dərəcədə. Hər bir insanın yaşam taktikası və stratergiyası var. İnsanlara etibar edib, eyni zamanda, onları yoxlamalısan.

### *"Məni sarsıdan insanlar çox olub"*

**-Etibarınızı sarsıdanlar olub?**

-Olub. İnsanların etibarımı sarsıtmalarına baxmayaraq yenə də başqa kəslərə etibar etmişəm. Məni sarsıdan insanlar həddindən çox olub.

Hətta ən yaxın dostlarım olub o kəslər. Dəfələrlə sarsılmağıma baxmayaraq inamımı itirmirəm. Düşünürəm ki, insanlar məni sarsıdanlardan ibarət deyil. Ona görə, başqa insanlara etibar edirəm.

**-Bu gün Nəsimi Məmmədovun Nəsimi Məmmədov kimi birinə ehtiyacı var?**

-Yox. Bəlkə də, özümü ideal saymıram, ona görə yox. Nəsimi Məmmədovdan üstün bir insana ehtiyacım var. Ki, həmin şəxsdən nəsə öyrənim. Özümü artıq tanıyıram, bilirəm.

**-Çatışmazlıqlarınız nələrdir?**

-Çatışmazlıqlarım özümü bəyənməməyimdir. Əslində isə bu hal yolverilməzdir. İnsan özünə qiymət verməli, özünü sevməlidir. O sevgi məndə özümə qarşı azdır. Çatışmazlıqlarım çoxdur.

Məni tanıyan insanlardan soruşsanız, onlar daha yaxşı cavab verərlər.

**-Allah rəhmət eləsin Nailə xanım Mirməmmədliyə. O deyirdi ki, bu gün gənclərin çoxsu kəsmə yolla populyarlıq əldə etməyə can atır. Nə düşünürsünüz, bu yolla əldə olunan populyarlıq sənəti uçuruma doğru aparırmı?**

-Allah rəhmət eləsin, Nailə xanıma. Çox gözəl bəstəkar idi. Azərbaycan musiqisində böyük itki oldu. Mən də Nailə xanımın bəstələrinə müraciət etmişəm. Çox sevinirəm ki, onu tanımışam. Bilirsiniz, sənəti olmayan insan onsuz da uçurumda olacaq. Kəsmə yolla əldə olunan məşhurluq sənəti uçuruma aparır. Birinci növbədə bunu deyim ki, o insanlar sənəti duya bilmirlər. Onlar mahnılarını aranjiman etdirəndə oradakı səhvləri görə bilmirlər, çünki musiqi savadları yoxdur. O müğənnilər sadəcə oxuyan, görüntü xatirinə musiqi ifa edən insanlardır. Həmin müğənnilər insanların zövqlərini korlayırlar.

### *"Çox çətinliklərim olub"*

**-Bu gün müğənnilər tamaşaçıların 5 dəqiqəsini düşünürlərmi?**

-Mən tamaşaçının 5 dəqiqəsini düşünürəm. İnanıram ki, mənim kimi fikirləşən çoxsaylı dostlarımız da var. Halal olsun, o müğənnilərə ki, onlar insanların 5 dəqiqəsini düşünürlər. Aranjiman prosesi çox qəlizdir. Tamaşaçının bu çətinliklərdən heç bir xəbəri olmur. Bu gün bir mahnını ərsəyə gətirərkən ilk növbədə fikirləşirəm ki, tamaşaçı yorulmasın.

**-Çox əziyyətlər çəkmisiniz?**

-Əlbəttə, çox çətinliklərim olub. 33 yaşım var artıq...İfaçılığa, pul qazanmağa tez başlamışam. 2006-cı ildə artıq məclislərdə oxuyurdum. İnanın, həmin vaxtlar elə olurdu ki, az pula toylara gedib mahnılar oxuyurdum. Mənim elə vaxtlarım olub ki, mahnı bəyənmişəm, amma imkanım yol vermədiyi üçün həmin mahnını oxuya bilməmişəm. Bunların hamısı stressdir. Yaxud da məclisə getmisən, oxumusan çox az qonarara. Söhbət həmin illərdən gedir.

**-Bu yaxınlarda "Əziz ana" mahnısını ifa etdiniz...**

-"Əziz ana" mahnısı bizim çox sevdiyimiz Qətibə xanım Əsədovaya həsr olunub. Çox sevdiyim ifalarımdan biridir. O mahnını ürəkdən sevərək Qətibə xanımın simasında bütün analara həsr eləmişəm. Mahnının bəstəkarı və söz müəllifi Sevinc xanım Ağayevadır. Ona dərin təşəkkürümü bildirirəm. Bacardığım qədər o mahnını yaxşı səviyyədə ifa etdim. Qətibə xanım hər zaman hər kəsə dəstək olan bir insandır. Allah onun ömrünü uzun etsin.

**-Təşəkkür edirəm ki, dəvətimi qəbul edib gəldiniz.**

-Siz sağ olun.

**Rövşən Tahir**


Quba rayonu Aqrar İslahat Komissiyasının 01 fevral 1999-cu il tarixli 115 nömrəli qərarı ilə Quba rayonu Barlı kənd sakini Rüstəmov Mübariz Abduləli oğlunun adına verilmiş Azərbaycan Respublikası Torpaq Mülkiyyət Hüququna dair JN-0005 Kod 30316038 Dövlət Aktı itdiyi üçün etibarsız sayılır.

***

Astara rayonu Ərçivan kənd sakini Cəfərova Məhbubə Dadaş qızına 24 noyabr 2003-cu il tarixli 06 saylı qərarı ilə Astara rayon Aqrar İsalahat Komissiyası tərəfindən verilmiş Torpaq sahəsinin plan və ölçüsü (8010001822520) itdiyi üçün etibarsız sayılsın.

***

Dadaşov Namiq Hacıbaba oğlunun, Dadaşov Rasim Hacıbaba oğlunun və Əlizadə Nərminə Hacıbaba qızının adına olan Bakı şəhər, Xəzər rayonu, Buzovna qəsəbəsi, Qədəmgah küçəsi ev 38 ünvanına dair Çıxarış itdiyi üçün etibarsıız sayılır.



BDU-nun (keçmiş ADU-nun) Tarix fakültəsinin 1986-cı il məzunları 824;826 və 828-ci qrupun tələbələri tələbə yoldaşları

**SÜRƏYYANIN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun əzizlərinə dərin hüznlə başsağlığı verirlər.



**Təsisçi və baş məsləhətçi:** Aqil ABBAS

**Baş redaktor:** İradə TUNCAY

Qəzet "Ədalət" qəzetinin bilgisayar mərkəzində yığılıb səhifələnmiş və "Son dakika" MMC Nəşriyyatında ofset üsulu ilə çap edilmişdir.

Müəlliflərin mövqeyi ilə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.

**KAPİTAL Bankın 1 saylı Nəsimi rayon filialı.**
kod: 200112 h\h VÖEN 9900003611
Müxbir hesabı: AZ37NABZ01350100000000001944
S.W.I.F.T. Bik: AIIBAZ 2x hesab N:
AZ42AIIB38070019441100451111 VÖEN: 1300456161
**İndeks:0107 Qeydiyyat nömrəsi 100**

Ünvan: Bakı AZ.1073 Mətbuat prospekti, 529-cu məhəllə, "AZƏRBAYCAN" nəşriyyatı, 6-cı mərtəbə.
**Telefon: 538-05-50, 538-51-31. 434-55-98**
**Faks: 539-80-26**
**adaletqezeti@rambler.ru**
**adaletqezeti@mail.ru, adaletqezeti@box.az**

**Tiraj: 2000**
**Sifariş: 57**
Çapa imzalanmışdır: 03.02.2021